

**“Düşmənlə onun anlayacağı dildə danışmalıyıq”**

13

# “Vaksinasiya strategiyası Azərbaycanda uğurla davam edir”




“Bütün beynəlxalq platformalarda dövlətimizin başçısı cənab İlham Əliyevin çıxışı böyük maraq doğurur. Səsləndirdiyi fikirlər, irəli sürdüyü təşəbbüslər beynəlxalq...

9

**Səs**

№ 038 (6479) 1 mart 2022-ci il. Qiymәti 60 qәpik



5

## Dövlət Statistika Komitəsi ilə UNICEF arasında Anlaşma Memorandumu imzalanıb

# İnformasiya savaşının sərkərdəsi

*AZƏRBAYCAN PREZİDENTİNİN ERMƏNİ JURNALİSTƏ CAVABI: DİPLOMATİK, SİYASİ DƏRS...*

Bəşər tarixinin son onillikləri müharibələrlə doludur, lakin heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Ancaq bir faktı vurğulamaq lazımdır ki, qətiyyətli, nüfuzlu siyasi rəhbərə, dövlət başçısına beynəlxalq marağın yüksək olması və bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media...



4

## “Barselona”nın oyunçusu “Real”a keçir?



16

“Barselona”nın yarımmüdafiəçisi Qavi İvan de la Penanın agenti ötən həftə ”Real”ın ofisində görüntülənib. Qol.az xəbər verir ki, bu barədə ”Marca” məlumat yayıb. ”Real”ın əzəli rəqibi Kataloniya klubunun ispan futbolçusunu transfer etmək istədiyi bildirilir. 17 yaşlı oyunçunun ”Barselona” ilə müqaviləsi gələn mövsümün sonunda başa çatır. Hazırda ona...



## Hansı yollarla mənzil sahibi olmaq mümkündür?

13

*İQTİSADÇI AYDINLIQ GƏTİRDİ*



“Mənzil bazarından nağd ödənişlərlə mənzil sahibi ola bilərlər. Digər yol isə yeni tikilən binalarda hissə-hissə və qısamüddətli, 2-3 illik ödəmə şərtləri ilə mənzil almaq...



## Biznes sıfırdan necə qurulur?

11

Öz kiçik biznesinizi qurmaq istəyirsiniz? Öz biznesinizi qurmaq əla karyera fürsətidir və sizə həm müstəqillik, həm...



## Sosial şəbəkələrdən həddindən artıq istifadə NƏLƏRƏ SƏBƏB OLUR?

10

“Son zamanlar insanlar arasında sosial şəbəkələrdən, internet resurslarından istifadənin və yaxud da internetdən asılılığın...

# Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq!

## *Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib*






**XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər. Yürüş iştirakçıları Xətai rayonunda ucaldılan Xocalı abidəsinin yerləşdiyi əraziyə gəliblər.**

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib. Birinci xanım Mehriban Əliyeva, Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev abidənin önünə gül dəstələri qoydular. Yürüşdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə, agentlik və şirkət rəhbərləri, dini konfessiyaların başçıları iştirak ediblər. Ümumxalq yürüşünün iştirakçıları abidənin önünə tər güllər düzdülər.

Xalqımız hər il olduğu kimi bu il də Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir. Qeyd edək ki, Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib.

Artıq ikinci ildir ki, xalqımız Bakıdakı Xocalı soyqırımı abidəsini alnıaçıq, başıuca ziyarət edir, çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Prezident İlham Əliyevin dediyi kimi: "Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəsi 2020-ci ili Azərbaycan tarixinə Zəfər ili kimi yazdı. Güclü siyasi iradə, möhkəm iqtisadi potensial, qüdrətli ordu, xalq-lider vəhdəti, cəmiyyətdəki böyük ruh yüksəkliyi, vətənpərvərlik, əzmkarlıq tarixi Qələbəni təmin etdi. Otuzillik həsrət bitdi, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Hazırda Azərbaycanın üçrəngli Dövlət bayrağı işğaldan azad edilən torpaqlarımızda - Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada dalğalanır.

Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq. Bir daha 30 il əvvələ qayıdır, o amansız soyqırımını, onun günahsız qurbanlarının xatirəsini yenidən yad edirik. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törətdi. Xocalı soyqırımı erməni millətçiləri və onların havadarlarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin ən qanlı səhifəsidir. Dünyanın gözü qarşısında baş vermiş, qəddarlığı və amansızlığı ilə fərqlənən bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın ozamankı rəhbərliyinin üzərinə düşür.

Xocalı erməni silahlı birləşmələrinin ölkəmizə təcavüzünün kulminasiya nöqtəsi idi. Erməni faşistlər aylarla mühasirədə saxladıqları bu dinc şəhəri öz havadarları ilə birgə bir gecənin içində yerlə-yeksan etdilər. Dinc əhaliyə amansızlıqla divan tutuldu, 613 nəfər qətlə yetirildi, 1275 nəfər girov götürüldü, 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insandır. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, insanlar diri-diri yandırılıb, onlara ağlasığmaz işgəncələr verilib.

Təəssüf doğuran məqamlardan biri isə Xocalıda hərbi əməliyyatlara rəhbərlik edənlərin hələ də cinayət məsuliyyətinə cəlb olunmamasıdır. Britaniyalı jurnalist Tomas de Vaalın "Qarabağ - Qara bağ" kitabında əksini tapan bəzi faktlar, o cümlədən azərbaycanlıların qırğınında iştirak edən Ermənistanın eks-prezidenti Serj Sarkisyanın söylədikləri deyilənləri bir daha təsdiq edir. "Xocalı hadisələrinə qədər azərbaycanlılar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi qırmağa nail olduq", - deyən Sarkisyan "biz bu barədə bərkdən danışmamağı üstün tuturuq" əlavə edib. Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan



Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi ziyarət edir. Düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

### *Rəsmi xronika*

Prezident İlham Əliyev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Goranboy rayonunun Dəliməmmədli-Düzqışlaq-Bağçakürd-Dəyirmanlar-Azad-Nizami avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev M.İ.Səlimzadənin Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Mehdi İldırım oğlu Səlimzadə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

# Xanəndəlik məktəbinin böyük ustadı

Səs dünyasının sultanı kimi bu mülkdə yer tutan sənətkarlar zamanın nidası, hökmü ilə adlarını əbədiləşdiriblər. Bu sənətkarlar elə bir zirvədədirlər ki, əsrlərin daşlaşmış yaddaşından səslər eşidilir. Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılara çatdırırlar. Məhz onların səsinin gücüdür ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərlərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Azərbaycan muğam sənətində dəsti-xətti ilə seçilən xanəndə, bəstəkar, xalq artisti, Prezident təqaüdçüsü Əlibaba Məmmədovun da sənət dünyasında xüsusi yeri var və olacaqdır. Zəmanəmizin canlı əfsanəsi olan Əlibaba Məmmədov bir ömürlük yolda sənət ziravəsini fəth edərək səsi ilə milyonların sevimlisinə çevrildi. Zəngin repertuarı, məlahətli səsi və bənzərsiz ifa tərzi Əlibaba Məmmədov muğamsevərlərin böyük rəğbətini qazandı. Sənətkarın böyük şairlərimizin şeirlərinə sözlə musiqinin uğurlu vəhdətində bəstələdiyi çox sayda mahnı və təsniflər dillər əzbəri oldu və dinləyicilərin qəlbində silinməz iz qoydu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Xalq artisti Əlibaba Məmmədovun vəfatı ilə bağlı rəsmi instaqram səhifəsində etdiyi paylaşımda deyilir: "Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Əlibaba Məmmədovun vəfatı mədəniyyətimiz, bütün xalqımız üçün böyük və əvəzsiz itkidir. O, yaşından asılı olmayaraq, kiçikdən böyüyə hər kəsin sevdiyi əsl Xalq artisti idi. Onun bəstələdiyi gözəl mahnılar məharətlə ifa etdiyi muğamlarla birgə milli musiqi irsimizi daha da zənginləşdirmişdir. Əlibaba Məmmədovun xoş, nurlu xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Allah rəhmət eləsin".



## Mehriban xanım Əliyeva: "O, yaşından asılı olmayaraq, kiçikdən böyüyə hər kəsin sevdiyi əsl Xalq artisti idi"

Bəli, Əlibaba Məmmədov Azərbaycan muğam sənətinin mahir ifaçısı, əvəzsiz xanəndə idi. Qosqoca yaşında belə ifa etdiyi muğamlara vurduğu naxışları ilə səs dünyasının bütün boyalarından məharətlə istifadə edirdi. Muğam sənətinə olan vurğunluğu, ifası belə insanın diqqətindən kənarda qalmırdı. O səsinin rəngi ilə sanki bir dünyanın işıqlı tablosunu yaradırdı. Ən böyük rəssamın vurduğu naxışlar qədər onun ifasında Azərbaycanın patlitrası əksini tapırdı. Böyük sənətkar idi Əlibaba Məmmədov. 92 yaşında dünyasını dəyişən Əlibaba Məmmədov böyük sənət yolu keçdi. Sənət yollarında muğam dünyamıza yeni-yeni naxışlar vurdu. Bu naxışlar Əlibaba Məmmədovun daxili dünyasından köçüb sənət dünyamıza bənzərsiz naxışlarla sənət çələngini hörüb. Təcümeyihalına nəzər salarkən görürük ki, o, 1930-cu il fevralın 5-də Bakının Maştağa kəndində anadan olub. Xanəndənin böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı Şiraz", "Rahab", "Dəşti" və başqa muğam-dəsgahlarının muğam dəstgahları kamil sənət nümunələri səviyyəsinə yüksəlmiş və musiqi mədəniyyətimizin qızıl fondunda özünə həmişəlik yer tutmuşdur. Xalq artisti "İnandır məni", "Yaşa hələ", "Sən gərək güləsən", "Səni gözlər" kimi məşhur mahnıları səsləndirib.

Özünəməxsus bir ömür yolu keçib. Orta məktəbi bitirdikdən sonra muğama olan sevgisi onu 1956-1960-cı illərdə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinə gətirir. Burada məşhur xanəndə Seyid Şuşinskinin sinfində musiqi təhsili alır, mədəni irsimizin tükənməz xəzinəsi olan muğamın sirlərinə dərindən yiyələnir.

Əmək fəaliyyətinə 1940-cı illərin sonunda Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi başlayan Əlibaba Məmmədov 1968-ci ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdində yaratdığı "Hümayun" xalq çalğı alətləri ansamblına otuz il boyunca rəhbərlik edir. O, eyni zamanda, 1978-1988-ci illərdə "Azkonsert birliyi"nin solisti kimi fəaliyyət göstərib.

Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı Əlibaba Məmmədov milli musiqi xəzinəsini daha da zənginləşdirən sənətkarlarımızdandır. O, hələ gənc yaşlarından Bakının və Abşeron kəndlərinin özünəməxsus muğam mühitində yetkin xanəndə olaraq formalaşmış, klassik muğam ənənələrinin qorunub saxlanmasını dolğun yaradıcılığının başlıca qayəsinə çevirmişdir.

Əlibaba Məmmədov xanəndəlik fəaliyyəti ilə yanaşı, 1963-cü ildən etibarən, yarım əsrdən artıq bir dövr ərzində indiki Bakı Musiqi Kollecində, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində və Azərbaycan Milli Konservatoriyasında dərs demiş, muğam sənətinin incəliklərini gənc ifaçılar nəslinə aşılamışdır. Ustad xanəndənin yetirmələri müxtəlif beynəlxalq festivalların və müsabiqələrin qalibi adına layiq görülmüşlər. Muğamla bağlı həyata keçirilən genişmiqyaslı layihə və proqramlarda yaxından iştirakı Əlibaba Məmmədovun muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində çoxillik səmərəli fəaliyyətinin ayrılmaz parçasıdır.

Xanəndə böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı Şiraz", "Rahab" və başqa muğam - dəsgahlarına möhrünü vurub. Dövlətimiz tərəfindən ömrünü sənətə həsr edən belə insanlara qayğı davamlıdır. Azərbaycan əməkdar artisti, Xalq artisti fəxri adlarını alıb. "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi Əlibaba Məmmədovun evində qonaq olması hər kəsin xatirindədir. Mehriban xanım Əliyevanın Əlibaba Məmmədovu ziyarəti sənət xadimlərinə verilən böyük qiymətdir. Əlibaba Məmmədovun bununla bağlı təəssüratlarını öyrənmək məqsədi ilə "Səs" qəzeti olaraq onunla əlaqə saxlayarkən o, bu ziyarətin gözlənilməz olduğunu bilirmişdi. Dövlətimiz tərəfindən hər zaman muğam sənətinə, bu sənəti yaşadanlara böyük diqqətin olduğunu vurğulamışdı. Mehriban xanım Əliyeva kimi bir şəxsiyyətin, insanın evində qonaq olması onu çox qürurlandırmışdı. Əlibaba Məmmədov Mehriban xanım Əliyevanın Azərbaycan milli musiqisinin, muğamının qorunmasındakı xidmətlərindən də danışmışdı. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini bildirmişdi böyük, ustad xanəndə. Fond tərəfindən "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.

Xanəndəni ziyarət zamanı Mehriban xanım Əliyeva o zaman Heydər Əliyev Fondunun böyük bir layihəsinə start verildiyini diqqətə çəkərək bildirmişdi ki, yəqin ki, yadınızdadır, bizim milli sərvətimiz olan muğamın qorunmasına yönəlmiş bir layihə idi, siz böyük yardım göstərdiniz və bu illər ərzində sizin dəstəyinizlə, iştirakınızla birlikdə böyük işlər gördük: "Siz Azərbaycanın görkəmli xanəndələrindən birisiniz. Sizin özünüzə məxsus dəsti-xəttiniz var, çox gözəl səsə malik olan ustadsınız və bütün Azərbaycan xalqının sevimlisisiniz. Sizi hamı sevir. Onu da qeyd etmək istəyirəm ki, siz Azərbaycanın milli-mənəvi ənənələrinin daşıyıcısısınız. Ona görə də böyük hörmətə malik olan bir insansınız. Mən sizinlə ünsiyyətdə olanda özüm üçün hər dəfə nəsə yeni bir şey aşkar etmişəm, öyrənmişəm".

Azərbaycanın Birinci vitse-prezidenti "Sizin yaradıcılıq irsiniz Azərbaycan xalqının mədəni irsidir. Əlbəttə, biz bunu saxlamalıyıq, qorumalıyıq" fikrinin ifadəsi sənətkarın yaradıcılığına verilən böyük qiymətdir. Xalq mahnılarının, muğam ifaçılığının təşəkkülündə özünəməxsus yeri, xidmətləri olan ustad xanəndələrdən olan Əlibaba Məmmədov uzun və zəngin yaradıcılıq yoluna malikdir.

"Muğam millətin ruhudur" - deyən Ə.Məmmədov ruhu heç vaxt öldürməyin mümkün olmadığını bildirirdi. Sözügedən ziyarət zamanı xanəndə ölkəmizdə həyata keçirilən uğurlu inkişafı da diqqətə çəkərək son illərdə görülən işlərə nəzər salmışdı: "Baxın, görün, Azərbaycan o Azərbaycandır, Bakı o Bakıdır?... Bilirsiniz, mən siyasətçi deyiləm, mən muğam ifaçısıyam, azdan-çoxdan şeiriyyət bilirəm, bir də muğamat bilirəm. Başqa bir şeylə işim yoxdur. Amma gözüm görür də, vallah. Bəzən deyirəm ki, bunların ağlı yoxdur, gözləri də yoxdur? Baxmırlar, görmürlər ki, nə işlər görülür? Xalqımızın adından, musiqiçilərin adından, öz adımdan deyirəm ki, var olun, dünyada nə gözəl şeylər var hamısı Sizə qismət olsun".

Ə.Məmmədovun Mehriban xanım Əliyevaya "Siz çox xeyirxah adamsınız. Çox xeyirxah işlər görürsünüz, zəmanəmizin Hacı Zeynalabdinisiniz" - deyə bildirməsi əbəs deyildi. Mehriban Əliyevanın genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti bu fikirdə bir daha təsdiqini tapır.

Ömrünün ahıl çağını yaşayan muğam ustadı, təsniflərimizin mahir ifaçısı, Azərbaycanın, bütün türk dünyasının çox sevilən sənətkarı Ə.Məmmədovun Azərbaycanın Birinci Xanımının sənət və sənətkarlara, xüsusilə də Azərbaycan muğamlarına, xalq mahnılarına göstərdiyi bu diqqəti hədsiz sevincinə səbəb olmuşdur. Bu ziyarət onun həyat yoluna salınan daha bir naxış oldu.

Böyük sənət yolu keçmiş görkəmli xanəndə, mahir pedaqoq, səmimi və təvazökar insan Əlibaba Məmmədov dünyadan köç etdi. Mahir ifası, sənətkara məxsus dəsti-xətti, eləcə də öz ağıryana siması ilə yaddaşlarda iz buraxaraq, haqq dünyasına qovuşdu.

***Zümrüd BAYRAMOVA***

# İnformasiya savaşının sərkərdəsi

## *AZƏRBAYCAN PREZİDENTİNİN ERMƏNİ JURNALİSTƏ CAVABI: DİPLOMATİK, SİYASİ DƏRS...*

**Bəşər tarixinin son onillikləri müharibələrlə doludur, lakin heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Ancaq bir faktı vurğulamaq lazımdır ki, qətiyyətli, nüfuzlu siyasi rəhbərə, dövlət başçısına beynəlxalq marağın yüksək olması və bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, məhz ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir.**



Həmçinin onu da vurğulamaq lazımdır ki, ölkəmizə fərqli münasibətdə olan dövlətlərin KİV-lərinə müsahibə vermək, qarşı tərəfin suallarını cavablandırmaq həm də ölkələr arasındakı əlaqələrə aydınlıq gətirir. Sualları cavablandırmaq üçün isə jurnalistin təmsil etdiyi dövlətin daxili və xarici siyasəti, iqtisadiyyatı, coğrafiyası, dünyanın siyasi müstəvisindəki mövqeyi, nüfuzu, bir sözlə, ən kiçik detallar barədə zəngin informasiyaya malik olmalısan. Ölkəmizə gəlişinin məqsəd və məramından asılı olmayaraq xarici jurnalistlərin suallarına təmkinlə, səbirlə, xalqımıza məxsus qonaqpərvərliklə Azərbaycan xalqının maraqları, dövlətçilik mövqeyi, ölkəmizin region üçün əhəmiyyəti, dünya siyasətinə təsiri baxımından münasibət bildirən Prezident İlham Əliyev informasiya müharibəsində də qalib olduğunu göstərdi. Elə bu günlərdə, yəni fevralın 23-də Prezident İlham Əliyevin Moskvaya səfəri zamanı İTAR TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə ölkəmizin həyata keçirdiyi xarici siyasət barədə dolğun məlumatlar verməklə yanaşı, həmçinin verilən sualları da məntiq və faktlarla cavablandırdı.

### AZƏRBAYCAN PREZİDENTİNİN CAVABI GÜCLÜ VƏ XARİZMATİK DÖVLƏT BAŞÇISI VƏ QƏTİYYƏTLİ LİDER OLDUĞUNU BİR DAHA GÖSTƏRDİ

Keçirilən görüşdə Rusiya mediasının erməni diasporuna mənsub olan əsas siması, Russia Today telekanalının, Rosiyya Seqodnya və Sputnik agentliklərinin baş redaktoru Marqarita Simonyan kimi erməni mövqeyinümayiş etdirənə həmişə olduğu kimi yenə də qətiyyətli və faktlara əsaslanan cavab verdi. Etnik ermənilərin Azərbaycana girişinə guya qadağa qoyulması ilə bağlı qərəzli suallarına Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva məntiqli və faktlara əsaslanan cavab verdilər, onları Azərbaycanı və işğaldan azad edilmiş əraziləri öz gözləri ilə görmək üçün ölkəmizə dəvət etdilər. Bu çox məqsədyönlü addımdır. Çünki əgər səfər baş tutarsa, Rusiyanın aparıcı KİV rəhbərləri, o cümlədən erməni diasporunu və lobbisini təmsil edən şəxslər işğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən törədilmiş ağlasığmaz dağıntılar və xarabalıqlar faktı ilə üzbəüz qalacaqlar.

”Bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Onlar Avropa Oyunları kimi idman tədbirlərində iştirak edirlər”, - deyən Azərbaycan Prezidenti İlham Əliyev TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə ”RT” telekanalının və ”Rossiya seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş redaktoru Marqarita Simonyanın ”ermənilərin Azərbaycana girişinə qadağa qoyulması” barədə fikrinə münasibət bildirərkən söyləyib.M.Simonyanın dediklərində müəyyən qərəzlilik olduğunu bildirən dövlətimizin başçısı deyib: ”Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycana müxtəlif tədbirlərə gələndə də eyni vəziyyət baş verir. Bir neçə il bundan əvvəl Katalikos Qareginin səfəri olub, mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm - erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur. Narahatlıq var, daha doğrusu, vardı ki, belə hallar xaotik şəkildə baş verəndə hansısa insidentlərin ola biləcəyi barədə müəyyən risk var”.

### ”AZƏRBAYCAN-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN NECƏ CƏRƏYAN EDƏCƏYİ BARƏDƏ PROQNOZ VERMƏK ÇƏTİNDİR”

”Azərbaycan ilə Ermənistan arasında münasibətlərin necə cərəyan edəcəyi barədə proqnoz vermək mənim üçün çətindir. Çünki bütün bunlar təzədir. Bizim bəyanatlarımız və sülhün bərqərar olmasına hədəflənməyimiz hələ ki, erməni rəhbərliyi tərəfindən ən azı açıq şəkildə qəbul edilmir”.

Bu fikri Prezident İlham Əliyev TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı bildirib.”Buna görə də bu yaxınlarda baş verən hadisələr nəzərə alınmaqla, dünyada vəziyyətin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çox çətindir. Fikrimcə, təkcə mənə deyil, bilavasitə bu prosesə cəlb edilənlərə də çox çətindir. Çünki hər şeyi və bütün əsas ölkələrin hərəkətini qabaqcadan görmək çox çətindir. Hətta İkinci Qarabağ müharibəsi başlananda, hətta o potensialla - həm siyasi, həm hərbi, həm iqtisadi potensialla biz hər şeyi qabaqcadan nəzərə ala bilmirdik”, - deyə dövlətimizin başçısı qeyd edib.Müharibəni qabaqcadan proqnozlaşdırmağın mümkün olmadığını vurğulayan Azərbaycan Prezidenti deyib: ”Çünki təsdiqlənmiş planlar çərçivəsində gedirdik və yolumuzdan çıxmırdıq, lakin bu axında müxtəlif dolambaclar vardı. Rusiya ilə Ukrayna arasında vəziyyət barədə də bunu demək olar”.

### AZƏRBAYCAN PREZİDENTİ ERMƏNİSTANIN KÜTLƏVİ MƏZARLIQLARIN YERİNİ GÖSTƏRMƏK İSTƏMƏMƏSİNİN SƏBƏBİNİ AÇIQLAYIB

”İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad etdiyimiz ərazilərdə 1700-dən çox həlak olmuş erməni hərbi qulluqçusu bizim tərəfimizdən tapılıb və biz onların hamısını qaytarmışıq”,-deyən dövlət başçısı onu da bildirib ki, Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir: ”Biz erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, lakin hələ cavab yoxdur. Mən bilmirəm niyə. Yəqin onlar başa düşürlər ki, orada, sadəcə, hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağdadır, bizim işğaldan azad etdiyimiz ərazilərdədir”.

### ”İNDİ İNSANLARI QAYTARMAĞA MANE OLAN BAŞLICA PROBLEM MİNALARDIR”

Prezident İlham Əliyev bildirib ki, hələ ki, qayıtmağa yer yoxdur, çünki birincisi, hər şey dağıdılıb və ikincisi, hər yer minalanıb və müharibənin qurtarmasından keçən bir il üç ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200 nəfərdən çoxdur: ”Buna baxmayaraq, biz indi pilot layihəni icra edirik, yəqin ki, bir neçə aydan sonra Zəngilan rayonunun kəndlərindən birində həyata keçiriləcək, ilk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq. Sadəcə, müqayisə üçün deyim ki, biz Livanın ərazisinə bərabər ərazini bərpa etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni, sözün əsl mənasında, hər şey dağıdılıb. Ağdam şəhərində 30-40 min insan yaşayırdı, orada xarabalıqdan başqa heç nə yoxdur. Daşları daşıyıb aparıb, satıblar. Başdaşılarını sındırıb, aparıb və satıblar. Yəni, misli görünməmiş, ağlasığmayan miqyasda vandallıq. Bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Əfsuslar olsun ki, işğal altında olan ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bunu görməməyi üstün tutub”.

Dövlət başçısı qeyd edib ki, minalanmış sahələrin xəritələri yekunda bizə təhvil verildi, lakin onların dəqiqliyi 25 faiz təşkil edir. Bu, indi insanları qaytarmağa mane olan başlıca problemdir. Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb. Qeyd edək ki, indiyə qədər Azərbaycan tərəfdən heç bir müsahibə, açıqlama, nitq, video, çıxış xarici mediada bu qədər izlənilməyib. İndi isə, artıq izlənilir. Cənab Prezidentin sayəsində. Yəni, məlum faktın özü yetərincə böyük göstəricidir və bu, Azərbaycana və onun Liderinə olan xoş münasibətin növbəti göstəricisidir.

Və dövlət başçısının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir. Mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı ilə Azərbaycan Prezidenti aydın göstərir ki, Azərbaycan iqtidarı dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə konseptual yanaşır. Bu amil deməkolar dünyanın bütün aparıcı media orqanları tərəfindən vurğulanır.

Bir sözlə, həm hərb meydanının, həm də informasiya savaşının sərkərdəsi cənab Ali Baş Komandan ön cəbhədə döyüşən əsgər və zabitlərimizə öz əmrlərini verərək onlardan qələbə qazanmağı tələb etdiyi zamanda, eynilə dünyanın tanınmış KİV-lərinə müsahibə verərkən həm də yerli media nümayəndələrinə informasiya savaşında məğlub olmamaq tələbini göstərməklə bir daha bütün dünya İlham Əliyevin qətiyyətinin, yüksək liderlik keyfyyətlərinin, siyasi müdrikliyinin və uzaqgörənliyinin şahidi oldu. Beləliklə, döyüş meydanının qalibi olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalib oldu. Ən mühümü odur ki, Azərbaycan Prezidenti həm də erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya mekanlarında tutarlı siyasi dərs verdi və Ermənistanın, dünya erməniliyinin, həm də erməni lobbisinin Azərbaycana qarşı qərəzli informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

***RƏFİQƏ KAMALQIZI***



## Tahir Budaqov Serbiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb

Fevralın 28-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Serbiya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviç ilə görüşüb. Draqan Vladisavljeviçi salamlayan Tahir Budaqov onunla görüşdən məmnunluğunu ifadə edərək Azərbaycandakı fəaliyyətində uğurlar və müvəffəqiyyətlər arzulayıb.

Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviç öz növbəsində səmimi görüşə görə Tahir Budaqova təşəkkür edib.

Azərbaycan-Serbiya münasibətlərinin inkişafında hər iki dövlət başçısının fəaliyyətlərinin xüsusi vurğulandığı görüşdə bütün istiqamətlərdə olduğu kimi statistika sahəsində də əməkdaşlığın vacibliyi qeyd edilib, perspektivli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dövlət Statistika Komitəsi ilə UNICEF arasında Anlaşma Memorandumu imzalanıb

Fevralın 28-də Dövlət Statistika Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyi arasında "2022-ci ildə Azərbaycan Respublikasında Çoxgöstəricili Klaster Sorğusunun (MİCS) keçirilməsinə dair Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.

Komitə sədri Tahir Budaqov mərasim iştirakçılarını salamlayaraq bildirib ki, Dövlət Statistika Komitəsi ilə BMT-nin müvafiq strukturları, o cümlədən UNICEF arasında sıx əməkdaşlıq mövcuddur. Qeyd olunub ki, Çoxgöstəricili Klaster Sorğusunun keçirilməsi "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda öz əksini tapmışdır. Bu tədbirin yerinə yetirilməsi aktual, dolğun və müxtəlif əlamətlərə görə dezaqreqasiya olunan yeni məlumatların toplanılmasına, bununla da statistik məlumat bazasının zənginləşdirilməsinə, Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə məlumatların əldə olunmasına, məlumatların beynəlxalq müqayisəliliyinin təmin edilməsinə və statistik potensialın gücləndirilməsinə təkan verəcək. MICS-in keçirilməsi ilə ölkəmizdə uşaqlara və qadınlara dair məlumatlar dəstinin tamlığı təmin olunacaq.



Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens görüşün geniş heyətdə təşkil edildiyinə görə Tahir Budaqova öz dərin təşəkkürünü bildirib və qeyd edib ki, MİCS müayinəsinin aparılması məqsədilə 2021-ci ildən başlayaraq Dövlət Statistika Komitəsinin nümayəndələri ilə birgə hazırlıq işləri həyata keçirilmişdir. O, Memorandumda nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətlə yerinə yetiriləcəyinə əmin olduğunu bildirib. Qeyd edib ki, sorğunun postkonflikt və postpandemiya dövründə keçirilməsi öz aktuallığını uzun müddət qoruyacaq məlumatların əldə edilməsinə daha yaxşı imkan yaradacaq.

Sonra "2022-ci ildə Azərbaycan Respublikasında Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsinə dair Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.

Memorandumu Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens imzalayıblar. Tədbirdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

# "Azərbaycan bu günə kimi ABŞ-a gözəl dost olub"

**"Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir mərhələdə uğurla reallaşan Azərbaycan-Amerika Birləşmiş Ştatları qarşılıqlı münasibətləri ölkəmizin xarici siyasət strategiyasının prioritet istiqamətlərindən biridir. Hər iki ölkənin regional və beynəlxalq səviyyədə öz maraq dairəsi var və ölkəmiz müstəqillik qazandıqdan sonra, ABŞ-la bu maraqlar çərçivəsində çox produktiv əməkdaşlıqlar qurulmuşdur deyə bilərik". Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.**

Onun sözlərinə görə, Amerika Birləşmiş Ştatlarının dünyanın güclü dövləti olması, Şimali Atlantika Müqaviləsi Təşkilatında ABŞ-ın tutduğu mövqe, Emənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması sahəsində ATƏT-in Minsk qrupunun həmsədri rolunda çıxış etməsi, BMT TŞ-nin 5 daimi üzvündən biri olması və ümumiyyətlə dünyada siyasi, iqtisadi, hərbi və digər sahələrdə inkişaf etmiş dövlətlərdən biri olması Azərbaycanın ABŞ-la yüksək səviyyəli münasibətlər qurmaq istəməsini şərtləndirmişdir: "Həmçinin ABŞ-ın da Azərbaycanla əlaqələri genişləndirməsi və inkişaf etdirmək istəməsinin arxasında güclü səbəblər var. Azərbaycan Respublikasının yerləşdiyi regionun Yaxın Şərq, Avropa və Asiya regionlarının kəsişdiyi yerdə yerləşməsi Amerikanın maraqlarının təsir dairəsində olması deməkdir. Cənubi Qafqaz regionunda müstəqillik qazanmış digər dövlətlərlə müqayisədə Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarına, demokratiya prinsiplərinə daha çox önəm verməsi, bölgədə sülhün və təhlükəsizliyin təmin olumasında daha çox səylər göstərməsi, Azərbaycanın malik olduğu zəngin neft və qaz ehtiyatlarının cəlbedici olması və.s. kimi önəmli amillər ABŞ- ın Azərbaycanla əlaqələrə önəm verməsinin səbələrindəndir. Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində Ulu Öndər Heydər Əliyev və Azərbaycan Reapublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən mühüm atılmış, dövlətlərimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır".



Deputat sözlərinə belə davam edib: "30 illik bir müddət ərzində ABŞ-la əlaqələrimiz iqtisadi, elmi-mədəni, enerji sahəsi üzrə, beynəlxalq terrorçuluqla mübarizə və bir sıra digər sahələr üzrə müsbət dinamika ilə irəliləyir. Dövlətimizin başçısı İlham Əliyev hər zaman bəyan edir ki, Azərbaycanın xarici siyasəti açıq və aydındır. Rəsmi Bakı böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə qarşılıqlı hörmət və maraq prinsipləri əsasında əməkdaşlıq əlaqələri qurur və möhkəmləndirir. Ən əsası beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşan, bütün məsələlərin məhz bu prinsiplər əsasında çözülməsinə səy göstərən Azərbaycan heç bir dövlətin daxili işinə müdaxilə etmir və öz daxili işinə müdaxiləni də yolverilməz hesab edir. Azərbaycan müstəqil siyasət yürüdür.

Ölkə Prezidenti ABŞ-a ilk səfəri zamanı mətbuat konfransında jurnalistin Azərbaycanın ABŞ qarşısında hansı öhdəliyi götürməsi barədə sualına cavabını xatırlatmaq istərdik. Cənab İlham Əliyev bildirmişdir ki, Azərbaycan müstəqil dövlətdir. Heç bir dövlətin qarşısında öhdəliyi yoxdur. Azərbaycan-ABŞ münasibətləri qarşılıqlı hörmət prinsipləri əsasındainkişaf etdirilir. Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsindən sonra yaratdığı yeni reallıqlar bir daha ölkəmizin düşünülmüş və məqsədyönlü siyasətinə işıq saldı.

Mövqeyindən biraddım da belə geri çəkilməyən dövlətimizin başçısı İlham Əliyev bu mühüm məqamı da xüsusi qeyd etdi ki, Vətən müharibəsi həqiqət anı oldu. Kimin haqqın-ədalətin, kimin isə şərin yanında olduğu bir daha təsdiqləndi. Azərbaycan müstəqillik dövründə apardığı siyasət nəticəsində mühüm əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Bu gün də eyni reallıqdan çıxış edərək davam etdirilən intensiv əlaqələr Qafqaz bölgəsində Azərbaycanın ABŞ-ın iqtisadi tərəfdaşı və əməkdaşı olduğunu göstərir.

Azərbaycan bu günə kimi ABŞ-a gözəl dost olub. Gələcəkdə də Azərbaycan ABŞ əlaqələrini daha da gücləndirəcək və bu istiqamət üzrə mühüm addımlar atılacaqdır"

*Ayşən Vəli*

# "Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı olması mübahisə mövzusu deyil"

"34 il əvvəl, 1988-ci il fevralın 27-29-da Sumqayıtda baş vermiş hadisələr erməni millətçilərinin Azərbaycana qarşı təşkil etdiyi təxribatların növbəti tərkib hissəsi idi. Məqsəd ilk növbədə dünya ictimaiyyətində antiazərbaycan rəyi formalaşdırmaq, birgə yaşayışın mümkünsüzlüyünü sübut etmək idi. Məsələ burasındadır ki, hadisələrin təşkilatçısının erməni, iki dəfə məhkum edilən Eduard Qriqoryan olduğunu şahid ifadələri də təsdiqləyir". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib. Onun sözlərinə görə, 10-a yaxın erməni məhz Qriqoryan öldürmüşdü, 3 erməni qadına isə təcavüz etmişdi: "Təsadüfi deyil ki, SSRİ Baş Prokuroru yanında xüsusilə mühüm işlər üzrə keçmiş müstəntiq Vladimir Kaliniçenko da müsahibələrində Qriqoryanın cinayətkar kütləni yönləndirən şəxs olduğunu təsdiqləmişdi: "Qriqoryan cinayətkar kütləni yönləndirən şəxs idi. Həbs olunmasına qədər şahidlərin ifadələrinə görə o, gah ləzgi, gah dağıstanlı, gah da avar kimi - bir sözlə, Şimali Qafqaz nümayəndəsi kimi göstərilirdi. Həmin dövrdə "Krunk" və "Qarabağ" təşkilatları erməni millətçi hərəkatı üçün vəsait toplayırdı və pul ödəməyənlər cəzalandırılırdı. İstintaq Sumqayıtda evlərinə hücum edilənlərin məhz "Krunk" təşkilatına pul ödəməyən ermənilər olduğunu təsdiqləyib. Ulu öndər Heydər Əliyev məsələ ilə bağlı çıxışlarının birində deyirdi: "Bütün bunlar əvvəlcədən planlaşdırılmışdı! Bütün bunlar əvvəlcədən nəinki Kaputikyanlar, Balayanlar, onların arxasında duran qüvvələr tərəfindən, Mərkəzlə bərabər təşkil olunmuşdu! Çünki axşam hadisələr baş verir, səhərisi MK-nın Birinci katibi Qorbaçov onları qəbul edir, onlara söz verir. Onlar dərhal İrəvana gedir, orada meydana toplaşmış yarım milyon insan qarşısında çıxış edir, Qorbaçovun bəyanatını xəbər verir və kütlə sakitləşir, dağılışır".







Deputat sözlərinə belə davam edib: "İğtişaş üçün niyə məhz Sumqayıtın seçilməsinə gəlincə, şəhərin əhalisi 1988-ci ildə 258 min nəfər idi və bunun təqribən 18 minini etnik ermənilər təşkil edirdi. Yəni, burada qarşıdurma yaratmaq daha asan idi. SSRİ Baş Prokurorluğunun apardığı istintaq nəticəsində iğtişaş zamanı 26 erməni, 6 azərbaycanlı olmaqla, 32 nəfərin öldürüldüyü müəyyən edildi. Məhkəmənin qərarı ilə 92 nəfər uzunmüddətli həbs cəzasına, bir nəfər isə ölüm hökmünə məhkum olundu. Lakin SSRİ Baş Prokurorluğu tərəfindən aparılmış istintaqla iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırıldı, SSRİ-nin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmadı, onun təşkilatçıları və sifarişçiləri müəyyən edilmədi. Eduard Qriqoryan həbs edilsə də, bütün sübutlar təsdiq olunsa da sonradan o, cəza çəkmək üçün Ermənistana göndərildi və orada sərbəst buraxıldı. Amma təəssüf ki, 1980-ci illərin sonlarında Ermənistan SSRİ-də azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan zorla qovulması zamanı 217 azərbaycanlının ölümündə təqsirli bilinənlər barəsində heç bir tədbir görülmədi. Prezident İlham Əliyevin də söylədiyi kimi, o dövrdə Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət aldı, nəticə etibarilə Qarabağda münaqişə baş verdi.

Bu gün ermənilər Sumqayıt hadisələrini Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə etməyə çalışır. Amma bütün istintaq materialları bu cinayətin əsl mahyyətini ortaya qoyur".

*Ayşən Vəli*

# Xocalı soyqırımının dəhşətlərinə dünya biganə qalmır

Otuz il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Əlbəttə ki, erməni-rus hərbi birləşmələri tərəfindən Xocalıda terror planı əvvəldən hazırlanmışdı. Xocalı soyqırımı ilə ermənilər Xocalının 1992-ci il 26 fevralda yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı şəhəri bir gecənin içində yer üzündən silindi. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Bu soyqırıma laqeydlik göstərmək mümkün deyildi. Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Dünyanın müxtəlif qitələrində dərc olunan məqalələrdə, hazırlanan verilişlərdə, çəkilən filmlərdə Xocalı soyqırımının dəhşətləri qeyri-millətlərə təqdim olunur, bəşəriyyətə və insanlığa qarşı törədilmiş soyqırımının səbəbkarları dünya ictimaiyyəti tərəfindən lənətlənir. Fransanın "France Soir" portalında hüquq elmləri doktoru, Strasburq vəkillər kollegiyasının üzvü Jan-Emmanuel Medinanın dərc olunan "Xocalı - 1992-ci il fevralın 26-da baş vermiş qırğından 30 il sonra: hansı xatirə?" sərlövhəli məqaləsi diqqəti cəlb edir. Bu, onu göstərir ki, dünya insanı bu təcavüzkar siyasətə biganə deyildi. Bəşəriyyətə qarşı olan bu vəhşiliyin dünyada analoqu yoxdur. Xocalı soyqırımı Xatın, Lidisa soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı bir hadisədir. Azərbaycan xalqı 200 il ərzində, erməni millətçi-şovinistlərinin, davamlı olaraq, etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Azərbaycanlılar öz əzəli tarixi torpaqlarından qovulublar.

Məqalədə sovet imperiyasının son illərində Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları nəticəsində baş verən münaqişənin 1 milyondan çox azərbaycanlının doğma yurd-yuvasından didərgin düşməsi və qovulmasına səbəb olduğu bildirilib. 30 il əvvəl baş verən Xocalı qırğınına nəzər salan müəllif Xocalının strateji mövqedə yerləşməsindən, Ermənistanın ərazi genişləndirmək siyasətinə mane olmasından söz açır. Qeyd olunur ki, Xankəndi ilə Ağdam arasında Əsgəran üzərindən keçən Şuşa yolunun şimal-cənub oxunda dağlar boyunca uzanan yolla kəsişən Xocalı dəmir yolu nəqliyyatında mühüm mərkəz idi və regionda yeganə hava limanına malik idi. Məqalədə hücumun gedişinə nəzər salan müəllif həmin zamanı oxucusuna ətraflı şəkildə təqdim edir. "Həmin qanlı fevral gecəsində erməni silahlı qüvvələri tərəfindən mühasirəyə alınmış Xocalı şəhid şəhər oldu" - yazan müəllif hücum nəticəsində xüsusi amansızlıqla qətlə yetirilən insanlardan yazır. Girov götürülən 1275 nəfərdən 197-nin taleyinin indiyədək məlum olmadığı diqqətə çəkilir. Mülki insanlar diri-diri yandırılıb, başlarının dərisi soyulub, başları kəsilib, gözləri çıxarılaraq öldürülüb.













Fransalı vəkil onu da qeyd edib ki, ölkəsinin bəzi rəsmiləri ermənipərəst mövqe tutsalar da, rəsmi Paris BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini qeyd-şərtsiz imzalayıb. Fransa Ermənistan-Azərbaycan münaqişəsində həmişə beynəlxalq hüququn yanında olub və Azərbaycan dövlətinin suverenliyini təmin olunmasının vacibliyini ifadə edib.

"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi. Bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində, davamlı olaraq, addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımının rəsmən tanıması barədə qərar qəbul edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***









# Xocalı soyqırımının şahidləri

## DANIŞDI - QAN DONDURAN HADİSƏLƏR

**Bu gün 30 il öncə Xocalı soyqırımında canını qurban verən şəhidlərimizin xatirəsini yad etmək məqsədilə Xocalı sakinləri işğaldan azad olunmuş Ağdam şəhərində yerləşən Şəhidlər Xiyabanını ziyarət edib. Xocalı hadisələrini öz gözləri ilə görmüş vətəndaşlarımızın şəhidlər xiyabanını ziyarət edərkən hansı hisslər keçirdiklərini öyrənməyə çalışdıq. Mövzu ilə bağlı olaraq SİA Xocalı şahidləri arasında sorğu keçirib.**

**Şəhər sakini İzabela Baxşəliyeva:** "Biz bu günü 30 ildir ki, həsrətlə gözləyirdik. Bu il çox böyük qürur hissi ilə bura gəlmi-



şik. Mən Xocalı hadisələrinin canlı şahidi olmuşam. Həmin gecə öz yaxınlarımı və ailə üzvlərimi itirmişəm. Ali Baş Komandanımıza təşəkkülərimizi bildirirəm ki, bizə bu günü yaşatdı. Nəhayət ki, biz 30 ildən sonra öz ailə üzvlərimizin qəbrini ziyarət etdik".




**Şəhər sakini Məlahət Əliyeva:** "Mən Xocalı faciəsində yoldaşımı və qızımı itirmişəm. Xocalını mən tərk edərkən 35 yaşım var idi. Fevral ayı mənim qara ayımdı, baxmayaraq ki, mən fevralın 28-i doğulmuşam amma elə həmin



gündə qızımı və yoldaşımı torpağa vermişəm. Bununla da ermənilər mənim həmişəlik ad günümü təbrik edib. Bu gün Cümə məscidini ziyarət edərkən yoldaşım və qızımın meydini necə yuduğum və basdırdığım yadıma düşür".

**Şəhər sakini Nəzakət Salmanova:** "Xocalı faciəsində mən ana-



mı, bacımı və bacımın 4yaşlı qızını və qardaşımı itirmişəm. Həmin o hadisələr yadıma düşəndə tüklərim biz-biz olur. Allah ermənin evini yıxsın. Bu gün bu şəraiti bizə yaratdığı üçün cənab Prezidentimizə öz təşəkkürlərimi bildirirəm".

**Şəhər sakini Rəhim Allahverdiyev:** "Biz Xocalıdan necə çıxmışıq bir Allah bilir. Bu gün biz Ağdam torpağına gəlib şəhidlərimizin məzarlarını ziyarət etdik. Cümə məscidində bütün Xocalı şəhidləri yuyulub və buradan da torpağa



tapşırılıb. Ona görə çox ağır və çətin hisslər keçirdirik. Mən Ali Baş Komandana və qüdrətli ordumuza təşəkkür edirəm. Şəhid ailələrinin qarşısında baş əyirəm".

**Şəhər sakini Rüstəm Orucov:** "Bu gün biz 1992-ci ildəki hadisələri sanki yenidən yaşadıq.



Biz Ağdama gəlib şəhidlərimizi yad etdik. Bütün Xocalı sakinləri həmin hadisələrdə çox böyük itki verib. Gələn il inşaallah biz şəhidlərimizi Xocalıda yad edərik".

**Şəhər sakini Vəli Quliyev:** "Mən Xocalı hadisələrinin əvvəldən axıra kimi şahidi olmuşam. Hamı kimi məndə bu hadisələrdə itki vermişəm. Ermənilərin törətdiyi terror bütün bəşəriyyətə qarşı



törədilmiş bir hadisədir. Xocalı soyqırımı haqqında çox şeylər danışa bilərəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

**Şəhər sakini Yeganə Məmmədova:** "Xocalı hadisələri bizim sağalmaz yaramızdır. Həmişə bunların hər birini kədərlə xatırla-



yacayıq. Mən həmin günlərdə sanki şokda idim. Bir neçə gündən sonra mənə hər şey çatdı. Allah ölkəmizə bir də belə günlər nəsib etməsin".

***Banuçiçək Hüseynli***

# Uşaqlıqdan gələn travma nədir?

## PSİXOLOQ AYDINLIQ GƏTİRDİ

"Yaşadığı müddətcə insan müxtəlif növ hadisələrin şahidinə çevrilir. Bu hadisələrin bir qismi insanda müsbət hisslər yaratmaqla xoş xatirəyə çevrilsə də, travma kimi situasiyalar insanın indiki və gələcək həyatında dərin izlər qoyur". Bu sözləri SİA-ya açıqlamasında Elmi-Tədqiqat Pediatriya İnstitutunun Uşaq Bərpa Mərkəzinin psixoloqu Dəniz Umarova deyib.

Onun sözlərinə görə, bu gün insanları, onların psixoloji hal və davranışlarını təhlil etdikdə uşaqlıq dövründə yaşadıqları travma əlamətlərinin şahidi oluruq: "Yetişkin dövrdə cavabını tapa bilmədiyimiz, daim özümüzdə sorğuladığımız bir sıra düşüncə və davranışların kökü uşaqlıq xatirələrimizə qədər uzana bilir. Uşaqlıq travmaları 18 yaşından əvvəl məruz qalınan xoşagəlməz təcrübələrdir. Həmin dövrdə meydana gələn travmalar insan üzərində daha qalıcı və dərin təsirlərə malikdir. Buraya fiziki, psixoloji, cinsi istimar, eyni zamanda uşağın fiziki və emosional ehtiyaclarının ödənilməməsi, ona qarşı laqeydlik halları daxildir".

Psixoloq sözlərinə belə davam edib: "Təbii fəlakətlər, yaxın insanın ölümü, ana və atanın boşanması, müharibə, terror kimi hallar da insanda travmanın yaranmasına səbəb ola bilər. Qeyd edilən hallar zamanı ortaq xüsusiyyət uşağın fiziki, psixoloji, cinsi və ya sosial istiqamətdə zərər görməsi və nəticədə uşağa mənfi təcrübə yaşatmaqla onun sağlam inkişafına təsir göstərilməsidir. İnsanların travma qarşısında olan reaksiyaları və onların bu növ hadisələrə qarşı olan tolerantlığı müxtəlifdir. Belə ki, eyni bir hadisə bir insanda dərin izlər qoyduğu halda, digər insanda tamamilə yüngül formada təzahür edə bilər. Bu zaman təsir göstərici amil insanın qarşılaşdığı vəziyyət zamanı nə hiss etməsi və həmin hadisəni necə dəyərləndirməsidir. Uşaqlıq dövründə yaşanılan hər hansı bir travma hadisəsi şəxs üzərində qısamüddətli və ya uzunmüddətli bir iz yaradır. Bu zaman uşağın baş verən hadisəyə nə qədər müddət məruz qalması və travmanın növü də mütəxəssis tərəfindən şəxsin vəziyyətinin dəyərlənməsində başlıca rol oynayır. Travmanın təsiri nəticəsində şəxsdə fiziki və psixoloji əlamətlər müşahidə olunur. Buraya ürək döyüntüsü, titrəmə, qarında ağrılar, miqren, təşviş, depressiv əlamətlər, günahkarlıq, diqqət dağınıqlığı, yemə pozuntuları, zərərli vərdişlər və s. kimi narahatlıqlar daxildir. Uşaqlıq dövründə yaşanılan travmatik hallar şəxsin öz sosial mühiti ilə sağlam mü-



nasibət qurmasına, insanlara qarşı sevgi və inam hissi ilə yanaşmasına maneçilik törədə bilir.

Aydındır ki, uşaq doğulduğu ilk gündən etibarən yeni bir mühitə daxil olur. Bu mühitdə uşağın ilkin fiziki və emosional ehtiyaclarının ödənilməsi onun inkişafını şərtləndirən əsas amillərdən biridir. Həmin dövrdə uşağa qarşı laqeyd münasibət, onun ehtiyaclarının gözardı edilməsi və uşağın valideyn sevgisindən məhrum olması özündə ciddi bir travma olmaqla onun gələcək həyatda şəxsiyyət kimi formalaşmasına təsir göstərməkdədir. Belə ki, bu hal uşağın yetişkin dövrdə insanlar ilə güvənli əlaqə qurmasını çətinləşdirir.

Uşaqlıq dövrü travmaların aradan qaldırılmasından danışdığımız zaman burada bir sıra diqqət yetirməli olduğumuz məqamlar vardır. Daha öncə də qeyd etdiyimiz kimi, şəxsin yaşadığı hadisənin və onun nəticələrinin travma olaraq dəyərləndirilməsi bu sahədə çalışan mütəxəssis tərəfindən həyata keçirilməli və ona əsasən müalicə istiqaməti təyin olunmalıdır. Bu zaman şəxsin vəziyyətindən asılı olaraq əsasən medikamentoz müalicə və psixoterapiyadan istifadə olunur. Psixoterapiya zaman əsasən Koqnitiv Davranış (Bihevioral) terapiyası, EMDR terapiyanın tətbiqi geniş yayılmışdır. Bu zaman əsas məqsəd şəxsin daha öncə xatırlamaqdan çəkindiyi keçmiş təcrübələrinə qayıtması, baş verən hadisələrə fərqli aspektən baxması və yaşadığı emosional halların yenidən işlənilməsi xasdır. Yanlış təməl inancların aşkarlanması, şəxsin basdırılmış və yarım qalmış hisslərinin yenidən yaşaması və tədricən hadisələri yetişkin gözü ilə bir daha nəzərdən keçirməsi terapiyanın əsas istiqamətlərindən biridir. Lakin nəzərə almaq lazımdır ki, travmalarla işləyən zaman mütləq diqqətli olmaq və bu sahədə ixtisaslaşmış mütəxəssisə müraciət etmək vacibdir. Doğru və zamanında edilən müdaxilə ilə travma və onun insan həyatına olan neqativ təsirlərindən azad olmaq mümkündür".

***Ayşən Vəli***

# 270 ilin şəhəri, 44 günün əsəri, 2022-nin gözəli

**Ötən il Qarabağ zəfərinin bir ilini böyük təntənə ilə qeyd edən xalqımız ilin son günü qələbə üzərinə bir qələbə də əlavə edən yeni qürurverici xəbər eşitdi. Azərbaycan Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa ili" elan etdiyini vurğuladı. Daha sonra - 2022-ci il yanvarın 5-də bu barədə Sərəncam imzaladı. Sərəncamda deyilir: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa ili" elan edirəm".**

## 270 ilin şəhəri

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Pənahəli xan özünü bu torpaqların xanı elan edir və xanlıq ərazisini düşmən hücumlarından qorumaq məqsədilə mükəmməl qala tikdirməyi qərara alır. 1748-ci ildə Bayat qalası, 1752-ci ildə isə Şahbulaq qalası inşa edilmişdir. Lakin Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı, üç tərəfi keçilməz sıldırım qayalarla əhatə olunmuş əlçatmaz dağ yaylasında yeni bir qala ucaltmağı qərara almışdır. Yeni qala ilk illərdə öz banisinin adı ilə "Pənahabad", sonralar isə "Şuşa" adlandırılmağa başlanmışdır.

Tarixə nəzər salaq: Feodal müharibələri dövründə Şuşa bir neçə dəfə tarixin sınağından uğurla çıxaraq qalib gəlib. Bu qalaya hücum edən Məhəmməd Həsən xan Qacar, Fətəli xan Əfşar, Ağa Məhəmməd şah Qacar onu ala bilməmişlər. Qarabağ hökmdarı Pənahəli xan ərazini düşmənlərdən qorumaq məqsədilə xanlığın ən strateji mövqelərində müdafiə qurğularının tikintisinə başlamışdır. Beləliklə, tarix də göstərib, zaman da sübut edib ki, Şuşanın işğalı mümkün olmayan məsələdir. Bəs necə olmuşdu ki, millətdən, Vətəndən, ordudan məhrum ermənilər bunu edə bilmişdilər? Tarixə, sərkərdələrə meydan oxuyan Şuşa alına bilməzdi, o, 1992-ci ildə düşmənə verilmişdi və 2020-ci ildə tarix yazan igidlərimiz tərəfindən geri alındı. O tək geri alınmadı, həm də alınmaz qala olduğunu sübuta yetirdi.

## 44 günün əsəri və ya 28 il əvvəlki və 28 il sonrakı 8

Ümummilli Lider Heydər Əliyev vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında arzu və istəklərini belə ifadə edirdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik".

İşğal altındakı torpaqlarımızı hər zaman təəssüf hissi ilə anan, onların geri qaytarılmasına böyük inam bəsləyən ümummilli liderimiz ömrünün sonunadək, hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik. Bu, qarşımızda duran vəzifədir və biz onu nəyin bahasına olur-olsun yerinə yetirəcəyik, deyir, torpaqlarımızın geri alınması üçün beynəlxalq aləmdə böyükmiqyaslı işlər həyata keçirirdi. Lakin dünya susurdu. 17 ildə ölkə Prezidenti də eynilə ulu öndər kimi bu istiqamətdə danışıqlar apardı, Qarabağ problemini beynəlxalq səviyyədə həll etməyə, düşmənin sülh yolu ilə torpaqlarımızdan çıxarılmasına çalışdı. Lakin dünya yenə də susdu. Mənfur düşmən isə hələ üstəlik yeni ərazilər işğal etmək xülyasına düşdü. Belə olanda Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu düşməni yerində oturtmağı bacardı. Ulu öndərin böyük ümidlərlə dolu dəyərli fikirləri 8 noyabr 2020-ci ildə ümiddən gerçəyə çevrildi. Həmin gün Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyirdi: Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!.. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bəli, 28 il əvvəlki mayın 8-nin üzərindən 28 il sonrakı noyabrın 8-i xətt çəkdi. Zamanın o başındakı səkkizlə bu başındakı səkkiz bir-birindən nə qədər fərqli olsa da, Şuşanın taleyində o səkkizlərin hər ikisi var imiş... Şuşa əbədiyyən Azərbaycana-öz doğma anasına qaytarıldı. Artıq qovuşub iki doğma. Onlar indi Azərbaycan bayrağını çiyinlərinə salıb Şuşanın ən uca zirvəsində oturub bir-biri ilə ötənlərdən söhbət edir, biçib-tikəcəkləri yeni qırmızı köynəklərdən, yaşıl ətəklərdən, mavi kəlağayılardan danışırlar.

## 8 noyabr "Dağlarda toy"un qara bayramı oldu

Ermənilər 1992-ci ildə Şuşanın işğalı üçün həyata keçirdikləri əməliyyatları məxfi olaraq "Dağlarda toy" adlandırıbmışlar. Tarixən Azərbaycanda gözü olan mənfur düşməndən bundan başqa nə gözləmək olardı ki? Yüzlərlə insanı himayədarlarının köməyi, yardım əli ilə qətlə yetirən, minlərlə insanı yurdsuz-yuvasız edən, evini dağıdan, insanların göz yaşı, faciəsi üzərində öz səadətini quran, hələ üstəlik bunu toy adlandıranlar insanlıq adına layiq deyillər.

1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir.

"Dağlarda toy" əməliyyatı 30 ilə yaxın bir dövrdə davam etdirilmişdir. Ermənistanın baş nazirinin Şuşadakı "qələbə" xülyalı son rəqsi də həmin əməliyyatın bir xəttini təşkil edirdi.Lakin Şuşa dağları əli qavallı Xan Şuşinskinin, Bülbülün, Cabbar Qaryağdıoğlunun, Hacı Hüsünün, Məcid Behbudovun, İslam Abdullayevin Mirzə Sadığın sinəsinə basdığı tarının müşayiətindəki möcüzəli səsləri toy-bayram hesab edib hər zaman. Bu dağlar ermənilərin hər xalqdan bir not, bir akkord oğurlayıb düzənlədikləri musiqidən heç nə alamazdı ki. Bağrından süzülən Turşsu, İsabulağı, Səkinə bulağı, İsti bulaq, Soyuq bulaq, Çarıx bulaq, Saxsı bulaq, Qırx bulaq, Yüz bulağın paklığı, saflığı ilə "Şüşə" adlanan Şuşanın dağları sərxoş ermənilərin murdar rəqsindən heç nə anlamazdı ki. Bu dağlar öz insanının ayaq səslərini, toxunuşlarını toy, bayram bilir, yad tapdağından heç nə anlamazdı. Elə bütün bunlara görə də bu dağlarda "Dağlarda toy " əməliyyatını Ali Baş Komandanımız və Azərbaycan Ordusu noyabr əməliyyatı-Şuşanın azadlığı ilə ermənilərin qara bayramına çevirdi.

## 2022-nin gözəli

2022-ci il sənindir, gözəl Şuşa. 270 illik yubileyin qeyd olunacaq bu il. Bütün gözəlliyinlə builki tədbirlərə ev sahibliyi edəcəksən. Cıdır düzündə 2 günlük "Xarıbülbül" musiqi festivalında Azərbaycan musiqisinin sədası ilə gözlərin necə güldüsə, ruhun necə təzələndisə, Vaqifin məqbərəsi önündə Vaqif poeziya günlərinin keçirilməsi ilə necə yenidən o bənzərsiz günlərə qayıtdınsa, Azərbaycan və Türkiyə respublikaları arasında imzalanan "Şuşa bəyannaməsi" ilə düşmənə Qələbə mesajını bir daha necə çatdırdınsa, zəfərinin sonrakı günündən başlanan və davam etməkdə olan qurucuLuq, bərpa işləri ilə, yubiley ilində hüsnünə verilən bəzəklə 2022-ci ilin ən gözəl şəhəri olacaqsan. Bağrından qoparılanlar bir-bir sənə qaytarılır. Bütün bunlarsa sübut edir ki, sən qədim Azərbaycan yurdusan. Bu xalqın da oldun. Dağıdılan tarixi-mədəniyyət abidələrin təsdiqlədi ki, düşmən tarixinin üstündən xətt çəkməyə, bununla onların olduğunu dünyaya bəyan etməyə çalışsa da, böyük yanlış etdiyini anlamadı. Anlamadı ki, əgər bir tarixi sən yaratmısansa, onu heç vaxt məhv edə bilməzsən.

Çox xoşbəxtik ki, "Şuşa ili"ndə, yubileyində səninlə birlikdə olacağıq. 28 illik hicranının vüsal anına birlikdə sevindiyimiz kimi, bundan sonrakı inkişafını da birlikdə izləyəcək, şad günlərində səninlə olacağıq.

***Mətanət MƏMMƏDOVA***




# "Azərbaycan COVID-19 peyvəndlərini ianə edən ölkələrin səylərini alqışlayır"

**"İki ildən artıqdır ki, dünya koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərini gücləndirməklə bu bəlanın sona çatmasını səbirsizliklə gözləyir. Bəlkə də ilk vaxtlar bu mübarizə tədbirləri dünyanın əksər dövlətləri üçün möcüzə kimi görünürdü. Çünki həmin dövrə diqqət yetirsək, hətta inkişaf etmiş dövlətlərin belə qapanmaya üstünlük verdiklərini, mübarizə tədbirləri barədə düşünmək istəmədiklərini görərik. Qlobal mübarizə ilə bağlı ilk çağırış edənlər arasında Azərbaycan dövləti də oldu.**

Dövlət başçısı İlham Əliyev bu məsələ ilə bağlı bütün çıxışlarında bu çağırışı etdi ki, COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyət qlobal yanaşma tələb edir. Azərbaycanın, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşləri, BMT Baş Assambleyasının Xüsusi Sessiyası qlobal mübarizə sahəsində səylərin birləşdirilməsinə, bu bəladan az itki ilə çıxmağın yollarının araşdırılmasına xidmət etdi. Ölkəmizin bu təşəbbüslərinə verilən dəstək təbii ki, beynəlxalq münasibətlər sistemində artan nüfuzuna və çəkisinə söykənir. Bugünlərdə dövlət başçısı İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə, eyni zamanda, BMT Baş Assambleyasının "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda keçirilmiş yüksək səviyyəli tematik müzakirələrində videoformatda təqdim olunan çıxışında pandemiya ilə əlaqədar həm ölkə daxilində, həm də beynəlxalq aləmdə həyata keçirilən tədbirlər geniş şəkildə təqdim olundu." Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında



bildirib.

V.Rəhimzadə qeyd edib ki, pandemiyaya qarşı mübarizə tədbirlərinə başlandığı gündən Qoşulmama Hərəkatının təşəbbüsləri diqqətdən kənarda qalmır: "Qurum əməkdaşlıq və həmrəylik ruhunda geniş beynəlxalq ictimaiyyətin səylərini fəal şəkildə səfərbər edərək, pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması baxımından bir sıra uğurlu təşəbbüslər irəli sürmüşdür. 2020-ci ilin dekabrında dövlət başçısı İlham Əliyevin təşəbbüsü əsasında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr Qoşulmama Hərəkatına üzv dövlətlər adından irəli sürülmüşdür."

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, bu mübarizədə hər bir dövlətin səhiyyə sistemi də əsas rol oynayır: "Yaranmış vəziyyət ən inkişaf etmiş ölkələrin səhiyyəsinin pandemiyaya qarşı mübarizəyə tam hazır olmadığını nümayiş etdirdi. Azərbaycanın bu sahədə də təcrübəsi təqdir edilir. Belə ki, ilk gündən insanların sağlamlığının prioritetliyi önə çəkilərək səhiyyənin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, peşəkar həkim heyətinin formalaşdırılması istiqamətində mühüm addımlar atıldı. Xaricdən peşəkar həkim heyətinin mübarizəyə cəlb edilməsi də ölkəmizdə insanların sağlamlığına, ümumilikdə insan amilinə verilən yüksək dəyəri nümayiş etdirir. Hazırkı dövrün əsas tələbi vaksinasiya prosesinin yüksək səviyyədə həyata keçirilməsidir. Dövlət başçısı İlham Əliyevin qeyd olunan videoformatda təqdim olunan çıxışında səsləndirdiyi rəqəmlərə diqqət yetirək. Azərbaycan peyvəndlənmə kampaniyasına 2021-ci ilin yanvarında başlayıb. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. Həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardımı etmişdir. Bununla yanaşı, 5 ölkəyə peyvənd ianəsi edilib və bu iş davam etdiriləcək. Hazırda Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesi davam edir."

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan COVID-19 peyvəndlərini ianə edən ölkələrin səylərini alqışlayır və inkişaf etmiş dövlətlərin ehtiyacı olan az və orta gəlirli ölkələrlə peyvənd dozalarını bölüşməyi fəal şəkildə təşviq edir. Prezident İlham Əliyevin çıxışında da qeyd etdiyi kimi, bu kontekstdə Azərbaycan bütün ölkələr üçün COVID-19 peyvəndlərinin məqbul qiymətə, bərabər, universal və vaxtında əlçatanlığın təmin olunmasına xidmət edən COVAX Mexanizmi, COVAX Öncədən Bazar Öhdəliyi, COVAX Öncədən Bazar Öhdəliyi Forumu və digər aidiyyəti konstruktiv təşəbbüsləri yüksək qiymətləndirir və dəstəkləyir.

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının pandemiyanın tezliklə aradan qaldırılması ilə bağlı təşəbbüsləri davamlılığı ilə diqqət çəkir: "Beynəlxalq həmrəyliyin gücləndirilməsi üçün fəal şəkildə səylərin birləşdirilməsi əsas amil kimi qeyd edilir. Bu fikir də xüsusi qeyd olunur ki, Qoşulmama Hərəkatına üzv dövlətlərin, həmçinin bütün dünyanın koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirildiyi zamanlarda nümayiş etdirdikləri birlik, həmrəylik, səylərin birləşdirilməsi postpandemiya dövründə də əsas çağırışlardan olacaq."

Vüqar Rəhimzadə qısa təhlil əsasında bu qənaətini açıqlayıb ki, Azərbaycan pandemiya, "peyvənd millətçiliyi" və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının Xüsusi Sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunəsidir.

YAP Xətai rayon təşkilatının sədri bu məqama da xüsusi diqqət çəkib ki, koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinə başlananda "COVID-19 pandemiyası kimi qlobal təhdidə qlobal bir cavab lazımdır" çağırış ediləndə BMT-nin bütün dünya dövlətlərinin təmsil olunduğu ən böyük beynəlxalq platforma kimi bu cavabın tapılmasında mərkəzi rol oynayacağına böyük əminlik var idi: "Amma pandemiyanın ilk günləri göstərdi ki, BMT bu təhdidə qarşı mübarizəni lazımi səviyyədə təşkil edə bilmir. Məhz Prezident İlham Əliyevin vaxtında irəli sürülmüş təşəbbüsü həm Qoşulmama Hərəkatının üzvlərini, həm də bütün BMT-ni sanki səfərbər etdi və aktiv şəkildə pandemiyaya qarşı mübarizəyə başlanıldı. İnamla demək olar ki, pandemiya ilə mübarizədə qlobal liderlik rolunu məhz Prezident İlham Əliyev öz üzərinə götürdü və bu vacib missiyada BMT-nin fəaliyyətinə təkan verdi. BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi pandemiyaya qarşı mübarizədə müstəsna əhəmiyyət kəsb edərək bu istiqamətdə yeni bir mərhələnin başlanmasına stimul verdi. Bu prosesdə BMT-dən sonra ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatının da rolu inkaredilməzdir. Hazırda Azərbaycan bu önəmli beynəlxalq təsisata uğurla sədrlik edir. Keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə, müzakirələrdə dövlət başçısı İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi çıxışı ölkəmizə, ölkə Prezidentinə etimadın və inamın göstəricisi, Azərbaycanın sözünün, qəbul etdiyi qərarların, irəli sürdüyü təşəbbüslərin nə qədər əhəmiyyətli olduğunu açıqlayır. Bu uğuru ölkəmizə qazandıran düzgün müəyyənləşdirilən siyasət, qarşılıqlı hörmət və ədalət prinsiplərinin qorunması, humanizmə verilən dəyərdir."

# "Vaksinasiya strategiyası Azərbaycanda uğurla davam edir"

"Bütün beynəlxalq platformalarda dövlətimizin başçısı cənab İlham Əliyevin çıxışı böyük maraq doğurur. Səsləndirdiyi fikirlər, irəli sürdüyü təşəbbüslər beynəlxalq ictimaiyyət tərəfindən məqbul qarşılanır. BMT Baş Assambleyasının "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda keçirilən yüksək səviyyəli tematik müzakirələrində çıxış da bu qəbildəndir. Ümumiyyətlə, bu gün dünyada hələ də aktual olan pandemiyaya qarşı mübarizədə ölkəmiz nümunə nümayiş etdirdi. Dövlətimiz tərəfindən həyata keçirilən önləyici tədbirlərlə pandemiyanın ağır nəticələrindən yayına bildik. Bir sözlə, pandemiya dünya dövlətləri üçün bir sınaq oldu, qürurla deyə bilərik ki, bu imtahandan qalib çıxdıq". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.




Onun sözlərinə görə, dövlət başçısı cənab İlham Əliyevin böyük uzaqgörənliklə ölkəmizdə tətbiq etdiyi vaksinasiya strategiyası artıq öz nəticəsini göstərir: "Azərbaycanda vurulan vaksinlər həm effektiv, həm də təhlükəsizdir. İndiyədək ölkədə yetkin əhalinin 68%-dən coxuna 2 doza vaksin vurulub. Belə ki, son statistikaya əsasən, ümumilikdə 13 milyona yaxın vətəndaşımız vaksinasiya olunub. Bu da ölkə əhalisinin sağlamlığına məsuliyyətli davranışını göstərir. Daha bir vacib məqama diqqət çəkmək istərdim. Belə ki, digər dövlətlərdən fərqli olaraq ölkəmizdə vaksinasiya prosesi pulsuz həyata keçirilir. Bu, dövlətimizin vətəndaşların sağlamlığının vacibliyinə diqqətin əlamətidir".

"Pandemiya ilə əlaqədar vətəndaşlarımızın sosial vəziyyəti də dövlətimizin diqqət mərkəzində olub. Ölkəmizdə koronavirusdan əziyyət çəkən insanlara və biznes subyektlərinə təqribən 3 milyard ABŞ dolları həcmində sosial-iqtisadi dəstək paketi təqdim edilib. Cari ildə də bu məqsədlər üçün dövlət büdcəsindən 1.6 milyard ABŞ dolları həcmində maliyyə dəstəyi ayrılıb. Əsas qürur doğuran odur ki, möhtərəm Prezident İlham Əliyev pandemiya ilə qlobal mübarizədə tutduğu ədalətli mövqeyinə görə beynəlxalq ictimaiyyətin rəğbətini qazanıb. Qoşulmama Hərakatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilib. Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardım göstərib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin göstərişi ilə ölkəmiz bu gün də humanitar missiyasını uğurla davam etdirir, pandemiyanın ciddi nəzarətdə saxlanılması üçün təsirli və adekvat tədbirlərin həyata keçirilməsini davam etdirir", - Milli Məclisin deputatı deyib.

# Valideynlərə hörmət azalıb, saymamazlıq artıb - ŞƏHƏR SAKİNLƏRİ DANIŞDI

***Ailə, isti ocaq, övlad sevgisi insanlara verilən ən gözəl lütfdür. Ən gərgin vaxtında insan bir udum rahat nəfəsi evində alır, övladının bir gülüşü ilə gərginliyindən azad olur, dincliyini evində tapır. İsti ocağına, yuvasına bu qədər bağlılıq Azərbaycan xalqının genetik kodudur, mənəvi kimliyidir. Bəs, gəlin görək şəhər sakinləri bu haqda nə düşünür. SİA ailə dəyərləri ilə bağlı sorğu keçirərək şəhər sakinlərinin fikirlərini öyrənib.***

**Şəhər sakini Mehdi Əzizbəyov (ər) və şəhər sakini Zivər Əzizbəyova (onun xanımı):** "Biz 45 ildir ki, evliyik. Hər bir ailədə olduğu kimi bizim də



ailəmizdə söz-söhbət olub. Amma bütün bunlar həmişə yaxşı sonluqla bitib. Müasir ailələrdə problemlərə baxış dəyişib. Gənclər bizi nümunə alırlar, ona görə yaxşı tərbiyə vermək, onlara yaxşı örnək olmaq lazımdır".

**Şəhər sakini Şəlalə Rəcəbova:** "Son illərdə, yəni keçmişə nəzərən ailə dəyərləri xeyli dəyişib. Məncə, boşanmaların artması bu dəyişikliyin



əsas səbəblərindən biridir. İndi keçmiş dövrdəki kimi deyil. Kişilərin xəyanəti, zorakılıq artıb. Əvvəllər qadınlar buna dözürdülər, səs çıxarmırdılar, lakin indi ailələrini asanlıqla dağıda bilirlər".

**Şəhər sakini Nəsir İsgəndərov:** "Mən iki dəfə ailə həyatı qurmuşam. Əvvəllər imkanlı olmuşam, lakin sonra



kasıbladığım üçün ilk ailəm dağılıb. Düşünürəm ki, insanlarda pula meyillilik artıb. Əvvəlki dövrdə sevgi, ailə məbəd sayılırdı. İndi isə ailə dəyərləri öz əhəmiyyətini itirib".

**Şəhər sakini Gülnaz Qasımova:** "Əlbəttə ki indi ailə dəyərləri çox dəyi-



şib. İndi valideynlərə hörmət azalıb, saymamazlıq artıb. Uşaqlar böyüklərdən daha çox bildiyini iddia edirlər. Bu baxımdan keçmişdə ailə dəyərləri daha üstün tutulurdu".

**Şəhər sakini Rahib İsmayılov:** "Ailə dəyərləri indiki dövrdə pis yöndə dəyişib. İndi 10 ailədən 7-si boşanmayla sonlanır. Buna isə gənclərin



düzgün tərbiyə edilməməsi, uşaqların həddindən artıq sərbəst buraxılması-dır. Gənclər öz duyğularına qapanır, böyüklərin məsləhətinə qulaq vermirlər".



**Şəhər sakini Naibə Süleymanova:** "Son dövrdə ailə dəyərləri çox dəyişib. Əvvəllər indiyə nisbətən ailədə mehribançılıq, bağlılıq daha çox idi. Ailə üzvləri bir-birini dinləməyi bacarırdılar, bir-birlərinə hörmət edirdilər".

**Şəhər sakini Qədim Qasımov:**



"İndiki ailələr daha müasirləşib. Əvvəllər daha çox adət-ənənələr əsasında ailə qurulurdu. İndi ailələr avropasayağı qurulur. Getdikcə dövr dəyişilir deyə, ailə dəyərləri də dəyişilir. Mən buna normal baxıram, yəni insanlara zəmanəyə ayaq uydurmağa çalışır".

**Şəhər sakini Tahirə Bağırova:**



"Azərbaycanda ailə dəyərləri pis yönə doğru dəyişib. Böyüyə-kiçiyə hörmət azalıb, gənclər həddini aşıblar, geyimlərinə fikir vermirlər. Ona görə də ailə dəyərləri də daxil olmaqla hər şey pisə doğru gedir".

***Ləman Əlizadə***

## Naviqasiya sistemləri niyə düzgün işləmir - PROBLEMLƏRİN KÖKÜ NƏDƏDİR?

"Azərbaycanda istifadə olunan bir çox naviqasiya sistemləri var. Onlardan ikisi daha etibarlıdır. Biri dövlət tərəfindən yaradılmış "Az-Map" naviqasiya sistemidir. Digəri isə "Caspian NavTel" naviqasiya sistemidir". Bu sözləri SİA-ya açıqlamasında yol hərəkəti qaydaları üzrə ekspert Elməddin Muradlı deyib.



Onun sözlərinə görə, digərləri çox təəssüflər olsun ki, pul xərcləməmək üçün "Google Maps"dan və ya digər ölkələrin naviqasiya sistemindən istifadə edirlər: "Həmin ölkələrin naviqasiya sistemi dəqiq olmur. Ən böyük problem də odur ki, "Maxim", "Yandex" kimi taksi şirkətlərinin istifadə etdiyi naviqasiya şirkətləri var ki, orada Azərbaycanın tarixi torpaqları erməni adı ilə qeyd olunur. Bu baxımdan Azərbaycan naviqasiya sistemlərindən istifadə ilə bağlı qanunvericilik səviyyəsində məsələyə baxmalıdır. Başqa ölkələrin naviqasiya sistemlərini burada tətbiq etməyə heç bir lüzum yoxdur. Çünki dövlətin yaratdığı mükəmməl sistem var. Onlar üçün fərqi yoxdur ki, həmin şirkət bizim ərazilərimizi Azərbaycan və ya erməni dilində yazıb. Həmin sistemləri təkmilləşdirmək üçün dövlətin nəzarətində olan müəssisələrin qanunvericilik səviyyəsində elə təkmilləşdirmək lazımdır ki, hər kəs rəsmi naviqasiya sistemindən istifadə etsin".

***A. Qurbanzadə***

## Sosial şəbəkələrdən həddindən artıq istifadə NƏLƏRƏ SƏBƏB OLUR?

"Son zamanlar insanlar arasında sosial şəbəkələrdən, internet resurslarından istifadənin və yaxud da internetdən asılılığın göstəriciləri artıb. Elə iş sahələri, fəaliyyət sahələri mövcuddur ki, həmin sahədə çalışan insanların işi internetdən asılı olduğuna görə, onlar səhərdən axşama kimi bu resurslardan istifadə edirlər. Onlar demək olar ki, tamamilə internetdən asılı vəziyyətdə olurlar". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Rəşad Əsgərov deyib.

Onun sözlərinə görə, digər bir tərəfdən isə müəyyən bir qrup insanlar var ki, onlar boş vaxtlarını ancaq internetdə, sosial şəbəkələrdə keçirməklə məşğul olurlar: "Belə olan halda həm yuxarı yaşda olan insanlar, həm də gənclər internetdən tamamilə asılı vəziyyətə düşürlər. Bu asılılıq insanların bir-biri ilə canlı ünsiyyətini, münasibətini ləngidir və ya tamamilə sıradan çıxardır.



İnsanlar bu resurslardan istifadə edərək proseslərə təsir etməyə meyl olurlar. Bunun nəticəsində də asosiallıq, cəmiyyətdən uzaqlaşma meylləri daha çox artır. Bu artım insanlarda özünə qapanma, özgələşmə, cəmiyyətdən təcrid meyllərini artırır. Belə insanlar daha çox aqressiv olur. Cəmiyyətə və insanlara qarşı münasibətdə asosial meyillərin güclü olduğu insanlarda sanki cəmiyyətə qarşı bir mübarizə yaranır. Yaxşı olardı ki, bu tip insanlar internet resurslarından istifadə edərkən ya gün rejiminə, ya saat rejiminə müəyyən məhdudiyyətlər qoymaqla gün ərzində internet resurslarından istifadə etsinlər. Belə olan halda həmin insanlar özlərini daha gümrah hiss edəcəklər".

***Arzu***



## Ali təhsil müəssisələrinə yeni qəbul qaydaları necə tənzimlənəcək?

### TƏHSİL EKSPERTİ AYDINLIQ GƏTİRDİ

"Ali təhsil müəssisələrində cari ildə edilən dəyişikliklərə əsasən 3-cü ixtisas qrupunda alt qruplar yaradılır. Belə ki, 2-ci ixtisas qrupu üzrə "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisasına qəbul olmaq istəyən abituriyentlər alt qrupu seçməklə coğrafiya fənnindən imtahan verə biləcəklər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, bunun da nəticəsində 3-cü ixtisas qrupuna əlavə edilən "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisaslarına qəbul olmaq imkanı olacaq: "Qeyd edim ki, 3-cü qrup ixtisas qrupu üzrə abituriyentlərin ali təhsil müəssisələrinə qəbul olmaq imkanlarını artıracaq. Belə ki, hər il ixtisas qrupları arasında ən ciddi müsabiqə vəziyyəti 3-cü ixtisas qrupunda olur. Belə ki, burada 8 minə yaxın abituriyent müsabiqə şərtini ödəyirdi. Onun sadəcə 2 mini tələbə adını qazanırdı. Edilən dəyişiklikdən sonra 3-cü ixtisas qrupunda 3 minə yaxın plan yeri əlavə olunacaq. Bu da ali təhsil müəssisələrinə 3-cü ixtisas qrupu üzrə qəbul olmaq imkanlarını artıracaq. İkinci vacib dəyişiklik isə bugünə qədər "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisasları boş qalırdı, ya da abituriyentlər az balla bu ixtisaslara qəbul olurdular. İndi isə bu daha çox abituriyentin ali təhsil müəssisələrinə qəbul olmağa imkan verməsi ilə yanaşı həmçinin yüksək ballı və tarixi bilən şəxslərin bu ixtisaslara qəbul olmasına gətirib çıxardacaq. 3-cü ixtisas qrupunda "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisaslarının olması xüsusən özəl ali təhsil müəssisələrində plan yerlərinin dolmasına gətirib çıxardacaq. Nəticə etibarilə həmin ailə təhsil müəssisələrinin maliyyə vəziyyəti yaxşılaşacaq".

***Arzu***

# Biznes sıfırdan necə qurulur?

**ARAŞDIRMA**

***Öz kiçik biznesinizi qurmaq istəyirsiniz? Öz biznesinizi qurmaq əla karyera fürsətidir və sizə həm müstəqillik, həm də çeviklik verir. Quracağınız bizneslə bağlı düzgün qərar vermək çox vacibdir.***

## Sizə uyğun biznes ideyasını və sektoru müəyyənləşdirin

Əksər sahibkarlar hansı sektora başlayacağını dərindən düşünmədən biznesə girirlər. Soruşursan niyə? Bəzən biznes ideyası ilə bağlı təcrübəyə güvənirlər, bəzən ideyanı həyata keçirən və böyük sərvət qazanan biri haqqında oxuduqları məqalədən təsirləndikləri üçün, bəzən də biznes ideyası sadəcə olaraq son dərəcə maraqlı kimi səsləndiyi üçün bunu edirlər.

Hansı işi görəcəyinizə qərar verməklə iş tempinizi və ya qazancınızı müəyyən edirsiniz. Seçdiyiniz hər hansı biznes ideyası ilə daha az işləməklə daha çox pul qazana bilmə ehtimalınız var. Düşünəcəyiniz mövzular bunlarla məhdudlaşmır: Hansı biznes ideyası ilə uğur qazana bilərsiniz? Hansı parlaq ideya ilə qəddar iş dünyasında sağ qala, başqa sözlə, sektorda möhkəm dayana biləcəksiniz? Unutmayın, bəzi işlər digərlərindən daha çox uğur vəd edir.

Gördüyünüz kimi, biznes ideyanızı müəyyən etmək uğurlu biznes sahibi olmaq yolunda verəcəyiniz ən mühüm qərardır və bu, ilk addımınızdır.




Ticarət həmişəkindən daha çətindir və hər gün daha da çətinləşir. Pərakəndə satış sənayesinə daxil olmaq olduqca çətindir. Unutmayın, sizi şiddətli rəqabət mühiti gözləyəcək.

Pərakəndə nəhəng şirkətlərlə rəqabət aparmaq qeyri-mümkün deyil - Türkiyədə bir çox nöqtələri əhatə edən milyonçular buna sübutdur. Amma kifayət qədər çətindir. Müştərilərin sizin biznesinizi seçməsi üçün sizi digər şirkətlərdən fərqləndirəcək diqqətlə planlaşdırılmış strategiya hazırlamalısınız. Müştərilərə sizi seçmək üçün əsaslı səbəb təqdim etməyiniz vacibdir.

Biznesdə yer hər şeydir və yaxşı yer daha yüksək xərclər deməkdir. İstənilən icarə müqaviləsi imzalamazdan əvvəl günlərlə arzuladığınız mağazanın qarşısında kağız-qələm alıb, yoldan keçən maşınları,



piyadaları sayaraq oturmalısınız. Beləliklə, həm nəqliyyat vasitələrinin, həm də insan axınının ağır olub olmadığını yoxlamaq lazımdır. Lazımi yoxlamaları etdikdən sonra həqiqətən yaxşı bir yer tapdığınıza inanırsınızsa oranı icarəyə götürün və ya alın.

Onlayn mağaza və ya e-ticarət saytı? Hansını açmaq daha asan olardı? Sadəcə sayt qurun və sifarişlərin bir-birinin ardınca gəlməsini gözləyin, asan görünür, elə deyilmi? Təəssüf ki, bu sektorda işlər düşündüyünüz qədər asan deyil. Əvvəla, saytınıza ziyarətçiləri cəlb etmək üçün çətin bir işiniz olacaq.

Sizə e-ticarət sektoruna girməyi düşünənlərə deyim ki, quracağınız saytın axtarış motoru nəticələrində birinci yerdə olmasını





təmin etmək çox daha populyar açar sözlərdən istifadə etməyi tələb edir ki, bu da son dərəcə çətin bir işdir. Saytınıza müştəri çəkmək üçün reklam etdirməlisiniz. Lakin bunun baha başa gələcəyini unutmayın. Gördüyünüz kimi, e-ticarətlə məşğul olmaq düşündüyünüzdən də çətindir. İnsanları saytınıza necə daxil edə biləcəyinizi düşünməlisiniz.

Gələk pərakəndə sənayenin təhlükəsiz sığınacağı olan ikinci əl ticarətinə. Əgər bizneslə məşğul olmağa ciddi yanaşırsınızsa, xüsusilə nəhəng mağazaların üstünlük təşkil etdiyi kateqoriyada ikinci əl mağaza açmaq daha məntiqli seçim olardı.

Yeni iş qurmaq istəyən təzə sahibkarlara deməliyik ki, icarə biznesinin də böyük potensialı var. Avtomobil, ev və ya otaq kirayəsi biznesinə başlaya bilərsiniz. Bazarda yüksək gəlirli kirayə biznesi olan bir çox biznes sahibləri var. Ancaq bu iş düşündüyünüz qədər asan deyil. Sabit müştəri bazasına çatmaq biznesin idarə edilməsi prosesində əməliyyat problemlərinin aradan qaldırılması ilə yanaşı, həm də vaxt tələb edir.

Kirayə biznesinin digər vacib məqamı dövriyyədir. Biznesin həcmi artdıqda heç bir problem yoxdur. İqtisadiyyat iynələri düşəndə fəlakətlər zənciri başlayır.

Tələbələrdən tutmuş təqaüdçülərə qədər hər kəsin edə biləcəyi, aşağı investisiya xərcləri ilə sadə iş imkanlarını axtardıq. Bu işlərin arasında sizə əlavə gəlir gətirə bilənlər də var.

Sizə yeni iş verə bilənlər var. Hər kəsin asanlıqla sınaqdan keçirə biləcəyi 25 praktik biznes ideyası...

**Yaşlıları evə daşıma xidməti:** Kiçik bir şirkət qurmaq və evini köçürmək istəyən, lakin bunu etməyə imkanı olmayanlara xidmət göstərə bilərsiniz. Amma gəlin bu işi adi bir gəmiçilik işi ilə qarışdırmayaq. Yaşlı müştərilər köçdükdən sonra yeni evlərinə girəndə diş fırçaları, bəzək əşyaları, televizor pultu, hər şey öz yerində tapılmalıdır.

**Onlayn makiyaj:** Virtual aləmdə yüksək gəlir gətirən işdir və getdikcə genişlənir. Makiyaj mütəxəssisi ilə əməkdaşlıq edərək fərqli bir təşəbbüs edə bilərsiniz. Siz quracağınız bu saytda dəriyə qulluq və makiyaj sirləri haqqında məlumat paylaşa bilərsiniz. Bunlara əlavə olaraq sayta virtual makiyaj proqramları əlavə etmək mümkündür.

**Heyvan baxıcılığı:** Bu işə heç vaxt belə ehtiyac olmamışdı. Bildirilir ki, bu işlə məşğul olan şirkətlər azdır, yaxşı dövriyyələr var. Daimi müştərilərin tapılması mənfəətin artırılmasında mühüm amildir. Siz ev heyvanlarına baxıcı tapan bir agentliyə müraciət edə bilərsiniz və ya öz evinizi heyvanlar üçün yataqxana kimi aça bilərsiniz.

**Kiçik ferma:** Bir çox insan bağçılıqla məşğul olmağı sevir. Zirzəminizdə və ya bir neçə hektarlıq kiçik bir ərazidə siz kələm, göbələk, yeməli çiçəklər və xüsusi tərəvəzlər, həmçinin balqabaq çiçəkləri, ağ çuğundur, mavi kiçik kartof, ağ qulançar, yaşıl şəkər bostanları kimi meyvələr yetişdirə bilərsiniz. Bir neçə müştəri tapıb dolanışıq mənbəyi yarada bilərsiniz. Siz hətta qonşuluqdakı ərzaq mağazalarına və tərəvəz bazarlarına topdansatış sata bilərsiniz.

*Ardı Səh. 12*

# Biznes sıfırdan necə qurulur?

## ARAŞDIRMA

Əvvəli Səh. 11

**Hədiyyə səbətinin hazırlanması:** Xeyr, vaxtı keçmiş deyil. Fərq yaradan qalib gəlir. Yaradıcılıq və dizayn bacarıqlarından istifadə edərək gəlir əldə etmək istəyənlər üçün ideal bir təşəbbüsdür.

**Hava təmizləmə xidməti:** İş yerlərində və evlərdə havanın keyfiyyəti artan problemdir. Tənəffüs xəstəlikləri, hava kanallarında və hava filtrlərində havanın çirklənməsi nəticəsində yaranan xəstəliklər təkcə kiçik sahibkarlar üçün deyil, həm də iri sənaye müəssisələri üçün mühüm biznes imkanları yaradır.

**Stil məsləhətçisi:** İnsanlar iş həyatında vacib işlərə sahib olmaq üçün yaxşı təəssürat yaratmaq istəyirlər. Bu nöqtədə stil məsləhətçilərinin bir işi var. Xarici görünüş üzrə məsləhətçilər öz müştərilərinə katibdən tutmuş rəhbərlərə qədər şirkət işçilərinə yaxşı görünmək və özlərini necə təqdim etmək barədə məsləhətlər verirlər.

**Stend icarəyə götürün:** Ticarət mərkəzləri kiçik investorlar üçün imkanlarla doludur. Son zamanlarda stend və ya köşk investisiyaları çox populyarlaşdı. Çünki investisiya xərcləri, icarə və personal xərcləri mağazalarla müqayisədə çox azdır. Yaxşı yerdə açılan köşklər çox yüksək dövriyyəyə nail olur.

**Kompyuter məsləhətləri:** Texnologiya bazarlarında ən populyar kadrlardan biri olmaq üçün çətin proqram təminatı haqqında texniki məlumatları öyrənmək, internet və ya xüsusi proqramlar haqqında texniki detallara sahib olmaq lazımdır.



**Ofis dəstək xidməti:** Katibi və ya köməkçisi olmayan məşğul insanlara xidmət göstərə bilərsiniz. Ofisə dəstək xidmətləri bir çox məsələlərin həllini təmin edir (yazı, tərcümə, korrektə, biznes yazısı, flayerlərin hazırlanması, mühasibat uçotu, faktura, ofis rəhbərliyi və icma görüşləri kimi).

**Biznes planlama:** Firmalar kredit və qrantlar əldə etmək üçün biznes plan tərtib etməlidirlər. Əgər mühasibat uçotu və marketinq haqqında ümumi məlumatınız varsa, onu heç bir qiymətə qiymətləndirmək mümkün olmayan gəlir əldə etmək mümkündür.

**Bloq idarəetməsi:** İnternetdə məhsullarını tanıtmaq üçün sosial mediadan istifadə etməyən şirkətlər demək olar ki, yoxdur. Bu tanıtım yollarından biri şirkətə və ya sənayeyə aid bloq saytlarını qurmaq və idarə etməkdir. Onlarla müxtəlif növ bloq saytları var.

**Nostalgiya mağazası:** Nostalji hər dəfə pul qazandırır. Kiçik bir sərmayə ilə bənzər nostalji obyektləri istehsal edib internetdə satışa təqdim edə bilərsiniz. Bunun üçün ötən illərdə gündəmə gələnləri araşdıraraq ilk addımı ata bilərsiniz. Hədəf auditoriyanıza görə təyin edəcəyiniz ikonları, əşyaları, ixtiraları, markaları skan edərək yüzlərlə materialı ortaya çıxara bilərsiniz.

**Orqanik məhsullar:** Orqanik məhsullar satan müəssisələrin sayı artır. İstəyirsinizsə, tanınmış bir markadan diler əldə edə bilərsiniz və ya orqanik fermaların məhsullarını bazara çıxara bilərsiniz.

**Kompyuter təmiri:** Çünki kompyutersiz həyat yoxdur. Onda bu işdə həmişə pul var. Kompyuterlərin tez-tez təmirə ehtiyacı var. Bununla belə, bazarda təlim keçmiş kadr çatışmazlığı var.

**Çay evi**: İndiki vaxtda yayılan çay kafelərinə böyük maraq var. Türkiyədə ilk dəfə şəbəkə çay kafelərinin sayı artır. Dəmlənmiş çay, bitki çayları və buna bənzər məhsulların yer aldığı bu yeni konseptlər bu günlərdə çox populyardır.

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və iqtisadçıların fikirlərini öyrənib.

**İqtisadçı deputat Vüqar Bayramov:** "Kiçik-orta sahibkarlıq inkişafı Azərbaycan





üçün prioritet məsələlərdəndir. Nəzərə alsaq ki, artıq dünyada kiçik müəssisələr həm də startapar formasında fəaliyyətə başlayır. Ona görə Azərbaycanda da kiçik müəssisələrin dəstəklənməsi, dövlət dəstəyinin gücləndirilməsi əsas istiqamətlərdəndir.

Eyni zamanda artıq həm kiçik müəssisələrin maliyyə resurslarının çıxış imkanlarının artırılması, onlar üçün vergi güzəştlərinin tətbiq edilməsi də dövlət siyasətinin əsas elementlərindən hesab olunur. O baxımdan Azərbaycanda əvvəla starta və ya kiçik müəssisə kimi fəaliyyət göstərən və ya göstərmək istəyən sahibkarlarımız ilk növbədə vergi güzəştlərindən faydalanmaq imkanlarına malik olurlar. Çünki bir tərəfdən kiçik müəssisələrin, xüsusən mikro müəssisələrin sadələşdirilmiş vergidən istifadə imkanları var. Eyni zamanda sənaye parkları və sənaye məhəllələrində vergi güzəştləri var, eləcə də sahibkara inkişaf fondu tərəfindən həmin sahibkarlar, müəssisələr üçün güzəştli kreditlər təklif olunur ki, bu da təbii ki, maliyyə təminatının gücləndirilməsi baxımından vacibdir".

**Psixoloq Vüsalə Əmiraslanova:** "Kiçik bizneslərin qurulması əlaqələrlə bağlıdır. Yəni, kiçik biznes qurmaq istəyən şəxs ilk öncə qurmaq istədiyi biznesi araşdırır.



Məsələn, "bu biznes ona nə qədər gəlir gətirəcək?", "etdiklərim əziyyətimə dəyəcək?" və "nə qədər ziyan verəcək?".

Kiçik biznes quran şəxs səbrli olmalıdır. Bu insanlar 6 ay ərzində hərşeyi nəzərə alır. Yəni, hər cür risk alır.

Bundan əlavə kiçik biznes sahibkarları öz işinin mütəxəssisi, ustası olmalıdır. Məsələn, mən hər hansı bir mərkəz açıramsa o barədə çox məlumatlı olmalıyam.

Psixoloji amillərə gəldikdə isə insan ilk öncə kamil peşəyə yiyələnməli, daha sonra güclü komanda qurmalıdır. Bundan əlavə düzgün strategiya aparmalı, rəhbərlik etməyi bacarmalıdır. Həmçinin, kiçik biznesin harada qurulması da önəmlidir. Yəni, tələbat nədirsə ona uyğun biznes açılmalıdır".

***Ayşən Vəli***



# Od çərşənbəsi - Günəşə, Oda olan inam

Xalqımız boz ayda qeyd edilən ikinci çərşənbəni - Od çərşənbəsini qeyd edir. Artıq bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Hər Çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilir. Novruz bayramına qədər dörd çərşənbə geniş şəkildə qeyd edilir ki, bunlar da su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi, torpaq çərşənbəsidir. Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dinimifik görüşləri simvollaşdırır. İlin axır çərşənbələrindən ikincisi xalq arasında Xəbərçi çərşənbə, Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.

Bu Çərşənbədə oda sitayiş edilir və onun şərəfinə şənliklər təşkil olunur. Günəş istisini arzulayan ulu babalarımız böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər. Atəşpərəst etiqadlarına görə, "müqəddəs od"u insana ağac vermişdi. Ulu babalarımız bunun şərəfinə şənliklər keçirərdilər. İnsan bədənində və təbiətin özündə qorunub-saxlanan istilik də müqəddəs hesab olunurdu. Elə bu istiliyi qoruyubsaxlamaq şərəfinə şənliklər yaranmışdı. Od ilə istinin əsas mənbəyi isə Günəş hesab olunurdu. Onu çağıran Qodu nəğmələri xalq arasında geniş yayılar, günəşin istiliyi şərəfinə şənliklər düzənlənirdi.

İndi şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Odla bağlı xeyli atalar sözü yaranıb: "Od imandır", "Od düşdüyü yeri yandırar" və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır. Od Çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək və pəhləvan olar. Oda sevgi və inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, Odu köməyə çağırıblar. Məsələn, "Od haqqı", "Oda düşəsən", "Ocağın odlu olsun", "Ocağın qazan görməsin" və s.

Qədim türk mifologiyasının özündə odla bağlı müxtəlif motivlər mövcud olmuşdur və Novruzdakı odla bağlı rituallar bu görüşlərlə bağlıdır. Ümumiyyətlə, bütün Çərşənbələrdə Od aparıcı motivdir. Bu, Od amilinin Novruzun mahiyyətində durmasına ən gözəl sübutdur.

Bu gün xalqımız öz ocağını BÜTÖV AZƏRBAYCANDA yandıracaq. Odumuz, alovumuz hər yana yayılacaq. Şuşamızın, Kəlbəcərin və başqa məkanların uca dağlarında yandırılacaq odun alovu ürəyimizi isidəcək, ruhumuza Novruzun müjdəçisi kimi hopacaq. Qoy hər zaman əzəli torpağımız üzərindən alovlanan qığılcımlar bizi yaşatsın. Varlığımızla torpağımıza isti şəfəqlər ələnsin.

Od Çərşənbəniz MÜBARƏK!

***Zümrüd BAYRAMOVA***

# Hansı yollarla mənzil sahibi olmaq mümkündür?

*İQTİSADÇI AYDINLIQ GƏTİRDİ*

**"Mənzil bazarından nağd ödənişlərlə mənzil sahibi ola bilərlər. Digər yol isə yeni tikilən binalarda hissə-hissə və qısamüddətli, 2-3 illik ödəmə şərtləri ilə mənzil almaq imkanıdır". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib.**

Onun sözlərinə görə, hökumətin və kommersiya banklarının irəli sürdüyü ipoteka kreditlərindən istifadə edərək mənzil sahibi ola bilərlər: "Burada əsas iştirakçı hökumətdir. Hökumətin təqdim etdiyi ipoteka krediti kommersiya banklarının təqdim etdiyi ipoteka kreditlərindən həm müddətinə görə, həm də faizinə görə daha əlverişlidir. Hökumətin təqdim etdiyi ipoteka krediti iki cürdür. Birincisi güzəştli ipoteka kreditidir ki, bu 4 faizli kreditdir. Müəyyən kateqoriyalara aid insanlar bu ipotekadan istifadə edə bilərlər. Hökumət qarşısında, dövlət qarşısında nailiyyətləri olan və sosial cəhətdən zəif olan təbəqələr müraciət edə bilərlər.



Media haqqında yeni qanun qəbul edildikdən sonra jurnalistlər də bu güzəştlərdən istifadə edərək mənzil sahibi ola bilərlər. İkincisi isə adi ipoteka kreditidir. Adi ipoteka krediti 8 faizə qədər və 150 min manat məbləğində olur. Bunların hər birinin detallı şərtləri var. Güzəştli ipoteka kreditlərindən istifadə edərkən ilkin ödəniş kimi ümumi məbləğin 10 faizi ödənilir. Adi ipoteka kreditlərində isə bu 15 faiz təşkil edir. İstənilən bir ərazidə olan kupçası olan mənzilləri əldə edmək mümkündür. Mənzilin çıxarışı mütləq şəkildə olmalıdır ki, ipotekadan istifadə etmək mümkün olsun.

Digər üsul satma öhtəliyi ilə kirayə mexanizmidir ki, bunun bir sıra üstünlüyü var. Burada ilkin ödəniş kimi 12 aylıq kirayə haqqı öncədən alınır. Kirayə ödənişləri də bazardakı mənzil qiymətlərindən bir qədər çoxdur. Burada ödənilən kirayə haqqları adi kirayə haqqlarından 30-40 faiz yüksəkdir. Kirayə müddəti bitdikdən sonra həmin mənzil şəxslərin adına keçirilir. Növbəti bir üsul isə Mənzil İnşaat Dövlət Agentliyinin (MİDA) irəli sürdüyü güzəştli evlərdir. MİDA mənzil bazarından 20-25 faiz daha ucuz mənzillər təqdim edir. Müəyyən ərazilərdə olan təmirli mənzillərdən yararlanmaq imkanı verir. Bunun üçün mənzil almaq istəyən şəxsin elektron kabineti olmalıdır. MİDA hərrac keçirərkən həmin şəxslər elektron kabinetlə mənzil növbəsinə durmaq imkanı qazanır. Elektron kabinetdən keçərək bu üsulla mənzil sahibi ola bilərlər.



Qeyd edim ki, hələ də mənzil bazarında faizlər hələ də yüksəkdir. İpoteka kreditlərini dövlət derdiyi üçün həcmi məhduddur. Kommersiya bankları krediti yüksək faizlə təqdim edir deyə tələb az olur. Rəqabət olmadığı üçün uzunmuddətli kreditlərin faizləri yüksəkdir. Həmçinin mənzil almaq istəyən şəxsin aylıq rəsmi gəliri olmalıdır. Mənzil almaq istəyən şəxsin borc ödəmə qabiliyyəti yoxlanıldıqdan sonra həmin şəxslər müraciət edə bilər".

***Abutel İlhamqızı***

# "Düşmənlə onun anlayacağı dildə danışmalıyıq"

**"Torpaqlarımıza qarşı olan erməni təxribatları göstərir ki, Ermənistan tərəfi hələ də nə Vətən müharibəsinin nəticələrindən, nə də bu müharibədən sonra keçən ilin sonunda Qarakilsə istiqamətində baş verənlərdən doğru-dürüst nəticə çıxarmayıb". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.**

Onun sözlərinə görə, Azərbaycan ordusu düşmən təxribatları törədilən mövqelərə qarşı daha ciddi tədbirlər görməlidir: "Onsuz da Azərbaycanın 7 kəndi



hazırda Qazax istiqamətində işğal altındadır. Düşmənin atəşkəs rejimini pozmasına qarşı biz də ordumuz tərəfindən bir qədər təsirli tədbirlər həyata keçirməliyik.

Ədalət Verdiyev sözlərinə belə davam edib: "Hesab edirəm ki, həmin Qazaxın kəndlərindən hər atəşkəs pozulmasında birini azad etməli və həmin kənddə bayrağımızı qaldırmalıyıq. Buna görə heç kim Azərbaycanı nə qınaya bilməz, nə də buna görə Azərbaycana gözün üstə qaşın var deyə bilməz. Görünür bizə qismət olan düşmən normal dillə danışıqlar yolu ilə problemin həllində maraqlı deyil. Buna görə də biz müharibədə məğlub etdiyimiz, əzib keçdiyimiz düşmənlə onun anlayacağı dildə danışmalıyıq".

***Ayşən Vəli***

TƏRS BAXIŞ

# Ukrayna səfirliyindən Tofiq Yaqubluya şapalaqlı cavab!

**Məlum olduğu kimi, Ukraynada baş verən hadisələr bütün dünya ictimaiyyətini narahat edir və söz yox ki, müharibənin bəşəriyyətə verdiyi bəlaları məhz müharibə yolu keçən ölkələr, xalqlar daha yaxşı bilirlər. Bu baxımdan, dünyada sülhün bərqərar olması üçün bir çox çabalar göstərilir, cəhdlər edilir. Ancaq təəssüf ki, bir çox cəhdlər hələ də nəticələr verməməkdədir.**

O cümlədən, müharibənin verdiyi dəhşətli humanitar bəlalar da insanlığı, bəşər dünyasını düşünməyə, yardımlaşmağa vadar edir, qəlblərində insanpərvərlik ruhu olan istənilən şəxs çətin duruma düşən digərlərinə öz xeyirxahlıq əlini uzadır.

Azərbaycanda tarixən belə olub və hər zaman ona qarşı dostcasına yanaşanlara öz xeyirxahlıq əlini uzadıb. Bu gün Azərbaycan dövləti Ukraynada baş verən fəlakətin qarşısının alınması üçün bütün gücü və imkanları ilə çalışır. Əbəs deyil ki, Ukrayna prezidenti Vladimir Zelenski Azərbaycan dövlətinə, Prezidentinə və xalqına öz səmimi təşəkkürlərini çatdırdı, həyata keçirilən bu addımları yüksək şəkildə qiymətləndirdi.



### Onlar nümayiş etdirdikləri siyasi artistizm "xarüqələri" ilə, əslində, cəmiyyətdən kəsilib-atılmış siyasi tullantı olduqlarını isbatladılar

**Gültəkin Hacıbəylinin timsalında "Milli Şura"nın siyasi artistizmi keçmədi, ailəvi siyasi şou isə baş tutmamış qaldı**

Ukrayna səfirliyinə axışan azərbaycanlılar əllərində olan bütün imkanlarından maksimum istifadə etməklə dost Ukrayna xalqına dəstəyini nümayiş etdirir və bu ölkənin səfirliyi qarşısında nümayiş olunan dəstək aksiyaları demək olar ki, hər gün davam edir. Lakin...









Lakin bu əsnada özlərini "demokratik düşərgə" adlandıran "Milli Şura" adlı ölü qurumun siyasi dələduzları öz kirli məqsədlərini bu kimi humanitar aksiyalar görüntüsü altında yürütməyə cəhdlər edirlər.

Özlərini məhz adıçəkilən "qurumun" təmsilçiləri kimi təqdim edən Gültəkin Hacıbəylinin, Tofiq Yaqublunun və s. ünsürlərin davranışları isə bir daha sübut etdi ki, onlar nümayiş etdirdikləri siyasi artistizm "xarüqələri" ilə, əslində, cəmiyyətən kəsilib-atılmış siyasi tullantı olduqlarını isbatladılar. Bunu isə onların Ukrayna səfirliyinin səlahiyyətli nümayəndəsi ilə apardıqları dialoqdan da sezmək mümkün idi...

### "Milli Şura" adlı sirk tamaşasının Ukrayna səfirliyinin qarşısındakı klounadası baş tutmamış qaldı

Daha dəqiq desək, Gültəkin Hacıbəyli-Tofiq Yaqublu - bütövlükdə isə "Milli Şura" tamaşasının oynanılmasına imkan verməyən səfirlik rəsmisinin onlara verdiyi şapalaq kimi cavabı artıq onların necə rüsvay olduqlarını sərgiləmiş oldu. Beləliklə, əvvəlcə Ukraynanın mübarizəsindən danışan Gültəkin Hacıbəyli yavaş-yavaş mövzunu dəxlisiz və mənasız, məntiqsiz mövzuya - "avtoritar idarəçilik" üzərinə kökləməyə cəhd etdi və pası ötürdü Tofiq Yaqubluya.

O da öz növbəsində heç bir əsası olmadan "Mən Azərbaycan hakimiyyətinə görə utanıram" deməsi ilə dərhal, yerindəcə (!) layiq olduğu şapalaqlı cavabını aldı. Ukrayna səfirliyinin rəsmisi onun sözünü kəsdi və sözün gerçək mənasında Azərbaycanın mövqeyini müdafə etdi və vurğuladı ki, onun ölkəsi, ilk növbədə, Azərbaycan xalqına və Prezident İlham Əliyevə göstərilən diqqətə, qayğıya və dəstəyə görə minnətdardır və beləliklə, "Milli Şura" adlı sirk tamaşasının Ukrayna səfirliyinin qarşısındakı klounadası baş tutmamış qaldı. Bu, onların növbəti rüsvayçılığı oldu, bu, onların simasız üzlərinə vurulan haqlı, ədalətli və layiq olduqları şapalaq effektini verdi. Təbii ki, belə də olmalı idi...

### Tofiq Yaqublu öz dövlətinin adına utanırsa, buyursun getsin dəfələrlə (!) tərifədiyi Ermənistanda yaşasın

Əgər sizlər, həqiqətən də, Ukrayna xalqının iztirablarına dəstək göstərməyə, yara sarımağa getmisinizsə, ölkənin, dövlətin maraqlarına qarşı çıxış etmək nə demək idi? Yaxud, Tofiq Yaqublu öz dövlətinin adına utanırsa, buyursun getsin dəfələrlə (!) təriflədiyi Ermənistanda yaşasın, onun yolunu kəsən yoxdur. Zatən, yuxarıda da qeyd etdiyimiz kimi, o və ətrafı cəmiyyətdən kəsilib atılmış kor bağırsaqdırlar, ya da tullantı. Ona görə də ən azından cəmiyyətimiz bu kimi tullantılardan təmizlənər.

Qaldı ki Ukrayna səfirliyinin rəsmisinə, ona yetkin, dolğun cavab verməsinə görə dərin təşəkkür düşür. Ukrayna dövləti Azərbaycanın dostu olaraq hər zaman öz dəstəyini göstərib və bu gün də Azərbaycanın ona verdiyi dəstəyi hiss edir, hiss edir və itirmir!

**Rövşən RƏSULOV**

# Şərq iqtisadi bloku yarana bilər, anti-Rusiya sanksiyaları Azərbaycana təsir edəcəkmi?

**_Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlara cavab olaraq Qərb Moskvaya qarşı sanksiyalar tətbiq etdiyini açıqlayıb. Sanksiyalar təkcə dövlət orqanlarına deyil, ABŞ kapital bazarına çıxışı məhdudlaşdırılan özəl banklara da təsir edib. Qərb daha da radikal ssenariyə gedərsə, Rusiyanın enerji şirkətlərinə qarşı sanksiyalar tətbiq edəcək._**



Rusiya qeyri-neft ixracında Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Belə ki, Azərbaycanın idxalının 71%-i, ixracının isə 51,4%-i Rusiya Federasiyasının payına düşür. Bu baxımdan, yeni sanksiyalar paketinin və Rusiyada gözlənilən iqtisadi vəziyyətin pisləşməsinin Azərbaycana necə təsir edəcəyi sualı aktuallaşır. Bu məsələləri Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Elşad Məmmədov və rusiyalı iqtisadçı Aleksandr Razuvayev ”Caliber” analitik mərkəzinə şərh ediblər. İqtisadçıların şərhlərini oxucularımıza təqdim edirik.









E.Məmmədov hesab edir ki, Qərbin Rusiyaya qarşı sanksiyaları təbii ki, müəyyən təsir göstərir. ”Sanksiyalar müəyyən problemlərə gətirib çıxara bilər, lakin onlardan hansısa dönüş nöqtəsi və ya həlledici əhəmiyyət gözləmək lazım deyil. Fakt budur ki, Rusiyanın çox böyük resurs potensialı, sənayesi, güclü hərbi-sənaye kompleksi və sair iqtisadi potensialı var. Və buna görə də Rusiya iqtisadiyyatında sanksiyaların təsiri altında mümkün ciddi problemlərdən danışmağa ehtiyac yoxdur”,- deyə azərbaycanlı iqtisadçı bildirib.

Professorun sözlərinə görə, Rusiyanın enerji resurslarının dünya bazarlarına ixracı davam edəcək və bu kontekstdə hər hansı böyük axını Azərbaycan ərazisindən yönləndirməyin mənası olmayacaq.

”Ancaq müəyyən dərəcədə biz enerji siyasəti baxımından Rusiya Federasiyası ilə səylərimizi əlaqələndirə bilərik. Hesab edirəm ki, bu koordinasiya əvvəllər də olub. Üstəlik, Bakı da bu vəziyyətdən müəyyən qədər faydalana bilər. Rusiya, Azərbaycan və bütün neft və qaz ixracatçıları o mənada faydalanır ki, enerji qiymətləri güclü şəkildə qalxır və bu, ixracatçılar üçün əsas iqtisadi dividendlərdən biridir. Amma eyni zamanda başa düşmək lazımdır ki, silahlı münaqişə ticarət-iqtisadi əlaqələrin bir çox sahələrində logistika, malların çatdırılması və satışı, qarşılıqlı ticarət sahəsində müxtəlif problemlər gətirib çıxarır”,- deyə E.Məmmədov yekunlaşdırıb.



Aleksandr Razuvaev öz növbəsində qeyd edib ki, Rusiya iqtisadiyyatı üçün sanksiyalarla bağlı vəziyyət kifayət qədər qeyri-müəyyəndir.

”Siz başa düşməlisiniz ki, neft və qaz qiymətləri hər hansı Qərb sanksiyalarından daha vacibdir. Neft və qaz indi bahadır, Rusiya büdcəsi mütləq profisitlə çıxacaq və bu, sanksiyaların bütün mənfi cəhətlərini üstələyəcək. Əsas mənfi hal birjanın düşməsidir. Əgər biz Rusiya fond bazarını indiki neft qiymətləri ilə qiymətləndirsək, onda RTS dollar indeksi haradasa 2000 punkt civarındadır - bu, ədalətli dəyərdir. İndi 1000-dən azdır. Bu siyasi təsirlərlə bağlıdır. Amma varlı azərbaycanlıların çoxu Moskva birjasına sərmayə qoymur. Müvafiq olaraq, onların itkiləri o qədər də böyük deyil.

Prinsipcə, Azərbaycan üçün anti-Rusiya sanksiyaları, fikrimcə, müəyyən üstünlüklərə malikdir. Qərb Rusiyadan neft və qaz alışını azaltmaqda maraqlıdır və buna uyğun olaraq Azərbaycan nefti və qazına tələbat da artacaq”,- deyə A.Razuvayev bildirib. Rusiyalı iqtisadçı Rusiyanın SWIFT-lə bağlı ciddi probem yaşayacağını düşünmür, çünki heç kim xarici ticarəti ləğv etməyib.

”Rusiya əmtəə bazarında mühüm rol oynayır. Daha geniş baxsanız, Rosatom, Rosoboroneksport kimi nəhənglər də var, böyük həcmdə buğda istehsalı və ixracı. Baxmayaraq ki, Qərbin Rusiya silahlarını almadığı aydındır. Hələ 2014-cü ildə Rusiya Şərqə dönüşünü qeyd etdi, lakin o zaman onlar ilk növbədə Çindən, bir az da Hindistandan danışırdılar. İndi təbii ki, türk dünyasından da danışırlar. Mənim fikrimcə, Azərbaycan və Türkiyənin Aİİ-yə daxil olması çox düzgün olardı. Çox güman ki, Özbəkistan bu il Türk Dövlətləri Birliyinə üzv olacaq. Rusiya da. Tatarıstan, Başqırdıstan, Yakutiya... Rusiyada türkdilli xalqlar var. Bu, çox maraqlı ideyadır- vahid şərq iqtisadi bloku. Rusiya Bankının əhəmiyyətli maliyyə ehtiyatları türk lirəsini dəstəkləyə bilər. Baxmayaraq ki, ideal halda, bu, əlbəttə ki, vahid valyutadır- Belarus prezidenti Aleksandr Lukaşenkonun bu yaxınlarda dediyi kimi, Avrasiya avrosu. Bu pul vahidinin adını bir dəfə mən vermişəm- Altın. Və bu yaxınlarda Rusiya ilə Azərbaycan arasında imzalanmış Moskva Bəyannaməsi bu istiqamətdə mühüm addımdır. Vahid şərq iqtisadi bloku çox vacibdir. Bu, eyni zamanda, hərbi-texniki əməkdaşlığı da nəzərdə tutur. Və faktiki olaraq, Azərbaycan regionda əsas ölkəyə- Cənubi Qafqazda Rusiyanın müttəfiqinə çevrilir.

Mənə elə gəlir ki, Bakının Moskva və Ankaraya istiqamətlənməsi çox düzgün və iqtisadi baxımdan rasional seçimdir. Bu əməkdaşlıqdan tamamilə hamı faydalanır”, - deyə A.Razuvayev yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
1 mart
2022-ci il




# "Barselona"nın oyunçusu "Real"a keçir?

**"Barselona"nın yarımmüdafiəçisi Qavi İvan de la Penanın agenti ötən həftə "Real"ın ofisində görüntülənib. Qol.az xəbər verir ki, bu barədə "Marca" məlumat yayıb. "Real"ın əzəli rəqibi Kataloniya klubunun ispan futbolçusunu transfer etmək istədiyi bildirilir.**

17 yaşlı oyunçunun "Barselona" ilə müqaviləsi gələn mövsümün sonunda başa çatır. Hazırda ona müqavilənin yenilənməsi üçün heç bir təkif olunmayıb.

Qeyd edək ki, Qavi bu mövsüm La Liqada 21 oyunda 2 qol vurub və 4 qolun ötürməsini verib. Transfermarkt oyunçunun dəyərini 40 milyon avro olaraq qiymətləndirir.

# Mariya Stadnik
## Azərbaycana təşəkkür edib

**Azərbaycan millisinin Ukrayna əsilli qadın güləşçisi Mariya Stadnik instaqram hesabında yeni paylaşım edib. SİA-nın verdiyi məlumata görə, 34 yaşlı idmançı ötən gün Bakıda Ukraynaya dəstək aksiyasının fotosunu yayımlayıb. Stadnik fotoda Azərbaycan və Ukrayna bayraqları ilə yanaşı, təşəkkür işarəsinə də yer verib.**

**Daha əvvəl o öz profilindən Azərbaycan bayrağını götürmüşdü. Qeyd edək ki, 2 qat dünya və 8 qat Avropa çempionu olan Mariya Stadnik Pekin-2008 və Tokio-2020 Yay Olimpiya Oyunlarında bürünc, London-2012 və Rio-2016-da isə gümüş medal qazanıb.**

***Banuçiçək Hüseynli***



# Ürəyimiz yananda…

Tərkibində güclü antioksidantlar olan çay orqanizmdə xolesterolu azaldır, ürək, diabet və şəkər kimi xəstəliklərə qarşı qoruyucu təsir göstərir.

Tibbi mənbələrin yazdığına görə, çay düzgün qəbul edilmədikdə faydalı deyil, əksinə, daha çox zərərli içkiyə çevrilə bilər. Çay piylənmə, ürək xəstəlikləri, ikinci növ şəkərli diabet, ağciyər, dəri xərçəngi kimi xəstəliklərdən qorunmaq üçün çox faydalıdır.

Avropa Qida Təhlükəsizliyi Təşkilatı hər bir insanın gündə 400-600 milliqram yaşıl çay içməsini vacib sayır. Çay içərkən onun miqdarına və şəkərsiz içilməsinə də diqqət etmək lazımdır. Çox miqdarda çayın qəbulu böyrək və qaraciyərdə bir çox zədələnmələrə səbəb olur. Çay həddindən artıq içildikdə mədə yanması və qəbizlik kimi problemlərə səbəb olur.

Zövqə görə müxtəlif cür - qara, yaşıl və qırmızı çaylardan istifadə edilir. Çay sidikqovucu xüsusiyyətə malikdir və orqanizmdə olan bir çox lazımsız toksinləri xaric edir. Mütəxəssislər çayı yeməkdən yalnız 2 saat sonra içilməsini tövsiyə edir.



# İşçilərin təhlükəsizliyinə kim cavabdehdir?

"Əməyin mühafizəsi üzrə işçilərin də vəzifələri vardır. Belə ki, onlar əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tələblərini öyrənməli və onlara əməl etməli, əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymayacağı bir şəkildə yerinə yetirməli, əməyin mühafizəsi üzrə normalarda, qaydalarda və təlimatlarda nəzərdə tutulmuş fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməlidirlər". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Fariz Əkbərov deyib. Onun sözlərinə görə, iş yerlərində əmək şəraitinin yaxşılaşdırılması, təhlükəsizlik qaydalarına əməl edilməsi, işçilərin sağlamlığının qorunması, əməkdaşların qayğısına qalınması artıq zamanın tələbidir: "Sirr deyil ki, bəzi işəgötürənlər sahibkarlığı ağalıq etmək kimi başa düşərək, öz obyektlərində çalışanların əməyinə qul əməyi kimi baxır, işçilərin əmək hüquqları ilə hesablaşmır, əməkdaşların təhlükəsizliyinin, sağlamlığının qorunmasının təmin edilməsi barədə ümumiyyətlə düşünmürlər.

Əmək Məcəlləsinə görə, sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsi aşağıdakılardır:

1. İşəgötürən sağlam və təhlükəsiz əmək şəraitinə, təhlükəli və zərərli istehsalat amillərinə nəzarəti təşkil edir və bu sahədə baş vermiş dəyişiklik barədə işçilərə müntəzəm olaraq və vaxtında məlumat verir.

2. İşəgötürən əmək şəraitinin yaxşılaşdırılmasına, əməyin mühafizəsinin təmin edilməsinə və işçilərin sağlamlığının qorunmasına yönəldilmiş perspektiv və illik tədbirlər planı hazırlayır və həyata keçirir.

3. İşəgötürənlə işçilər arasında sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsi üzrə qarşılıqlı öhdəliklər kollektiv müqavilədə, əmək müqaviləsində nəzərdə tutulur.



4. Əmək şəraiti zərərli və təhlükəli olan istehsalatlarda, həmçinin xüsusi temperatur şəraitində aparılan və ya çirklənmə ilə bağlı işlərdə çalışan işçilərə müəyyən edilmiş normalara uyğun olaraq müvafiq pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri, yuyucu və dezinfeksiyaedici maddələr verilir.

5. İşəgötürən həmkarlar ittifaqları təşkilatının iştirakı ilə vaxtaşırı iş yerlərinin əməyin mühafizəsi normalarına və qaydalarına uyğunluğu üzrə attestasiya aparmalıdır. Attestasiyanın nəticələri barədə əmək kollektivinə məlumat verilir. İşəgötürən iş yerləri attestasiyasının nəticələrinə əsasən onları əməyin mühafizəsi üzrə qüvvədə olan normativ aktlara uyğunlaşdırmaq üçün lazımi tədbirlər görməlidir.

6. İşəgötürən işçilərə verilmiş xüsusi geyimin və ayaqqabının, digər fərdi mühafizə vasitələrinin saxlanmasını, yuyulmasını, qurudulmasını, dezinfeksiyasını, deqazasiyasını, dezaktivizasiyasını və təmirini təmin etməlidir.

7. İşəgötürən qanunvericilikdə nəzərdə tutulmuş istehsalat sahələrini qazlı və duzlu su ilə təchiz etməlidir.

8. İşəgötürən ilin soyuq və isti vaxtlarında açıq havada, yaxud qızdırılmayan qapalı binalarda və isti sexlərdə çalışan işçilərin isinməsi və ya istirahəti üçün otaqlar hazırlamalıdır".

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**